QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 118 (5349) 7 iyul 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Türkiyə və Azərbaycan Prezidentləri arasında telefon danışığı olub

Səh 2





Le Monde.fr

L'actualité internationale selon Julie et Hélène

Zahra, nouvelle victime du conflit sans fin entre Azerbaïdjan et Arménie : Erevan montrée du doigt

## Fransa mətbuatı dünya ictimaiyyətini Ermənistanı cəzalandırmağa çağırır

Bax 7

Fransanın "İslamnews", "l'express", "Mediapart" portalları, eləcə də "Le Monde" qəzeti iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni hərbiçilərin törətdiyi qanlı hadisədən yazır. Məqalələrdə 2 yaşlı Zəhranın və onun nənəsinin Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qurbanı olduğu diqqətə çatdırılır. Azərbaycan Xarici İşlər Nazirliyinin Füzuli rayonunun Alxanlı kəndində erməni hərbi qüvvələrinin törətdiyi qanlı hadisə ilə bağlı verdiyi məlumatdan söz açılır.

YAP İdarə Heyətinin iclası keçirilib 3

Ermənistanın işğalçılıq və terror siyasətinə son qoymaq üçün beynəlxalq birlik təsirli tədbirlər görməlidir


3

Bahar Muradova: "ATƏT-in təsir imkanları artırılmalıdır"


4

XİN: Rusiyanın münasibəti başa düşülən deyil


4

Novruz Məmmədov: "Dünya ictimaiyyəti niyə susur?"


3

Balaca Zəhranın öldürülməsi ilə bağlı ABŞ-ın Arizona Nümayəndələr Palatasının üzvü Ermənistan prezidentinə açıq məktub göndərib


7

9
Ermənistan ordusunun körpə Zəhra Quliyevanı öldürməsi dünya mediasının diqqət mərkəzindədir



11
Türkiyə KİV-ləri: İşğalçı Ermənistan uşaq qatilidir



16
Con Terri: "Məqsədim "Çelsi"nin baş məşqçisi olmaqdır"



# Türkiyə və Azərbaycan Prezidentləri arasında telefon danışığı olub

***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

Türkiyə Prezidenti cəbhə bölgəsində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində iki azərbaycanlı mülki şəxsin - nənə və nəvənin qətlə yetirilməsi ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların doğmalarına dərin hüznlə başsağlığı verib, Allahdan səbir diləyib. Prezident İlham Əliyev telefon zənginə və başsağlığına görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, bu, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı növbəti dəfə törədilmiş hərbi cinayətdir. Dinc əhaliyə qarşı törədilən bu qanlı cinayət erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu hərbi cinayətə görə bütün məsuliyyət Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşür.

Telefon söhbəti zamanı yaxın günlərdə Türkiyədə keçiriləcək Dünya Neft Konqresi ilə bağlı məsələyə də toxunulub, Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri müzakirə edilib. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana göstərdiyi qardaşlıq mövqeyinə və başsağlığına görə bir daha Azərbaycan xalqı adından minnətdarlığını bildirib.



# Tanınmış serb yazıçısı Milorad Paviçin xanımı dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli addımlar atmağa çağırıb

***Dünya şöhrətli "Xəzər lüğəti" kitabının müəllifi, serb yazıçısı Milorad Paviçin xanımı Yasmina Mihayloviç iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində ikiyaşlı Zəhra Quliyevanın və nənəsi Sahibənin qətlə yetirilməsini kəskin pisləyib.***

Azərbaycanın Serbiyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bu ölkənin geniş oxucu kütləsinə malik http://balkanin.com saytında "İkiyaşlı azərbaycanlı qız və onun nənəsi Dağlıq Qarabağda erməni hücumunun yeni qurbanı olmuşlar" sərlövhəli yazıda Yasmina Mihayloviçin fikirləri yer alıb.

Yazıda deyilir: "Təcavüzkar separatizm və tarixi torpağı olan Kosovo və Metoxiyanın parçalanması ilə üzləşən Serbiya vətəndaşı kimi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya xəbərlərini diqqətlə izləyirəm.

Xatırladım ki, 1990-cı illərdə hərbi müdaxilə və işğal minlərlə insan həyatına son qoymuş, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. 20 ildən artıq bir müddətdə bu hərbi münaqişə insanlara fəlakət və bədbəxtlik gətirməkdə, günahsız dinc insanların həyatına son qoymaqda davam edir.




İyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində dinc əhalini və mülki obyektləri atəşə tutması nəticəsində günahsız azərbaycanlıların, xüsusilə ikiyaşlı qız uşağı və onun 50 yaşlı nənəsinin ölümü, digər sakinin yaralanması haqqında xəbəri böyük narahatlıqla oxudum.

Yenə də, iyirmi il əvvəl olduğu kimi mülki insanlar, uşaq və qocalar məqsədyönlü şəkildə atəşə tutulur və qətlə məruz qalırlar. Mülki əhali ilə müharibəni qorxaqlıq hesab edirəm. Dinc əhaliyə qarşı yönəlmiş hər cür zorakılıq və hərbi əməliyyatları qətiyyətlə pisləyirəm. Minomyot atəşi nəticəsində körpə uşağın və nənəsinin ölümünün ərazi iddiaları ilə başlayan və həllini tapmayan hərbi münaqişələrin nəticəsi olduğuna inanıram.

Bütün dünya ictimaiyyətini və beynəlxalq təşkilatları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə tənzimlənməsi üçün qətiyyətli addımlar atmağa çağırıram".

# YAP İdarə Heyətinin iclası keçirilib

***İyul ayının 6-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilmişdir. İclasda YAP-ın Sədr müavini - İcra katibi, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni silahlı birləşmələrinin növbəti təxribatı və insan tələfatı haqqında məlumat verdi.***

Əli Əhmədov qeyd etdi ki, iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni silahlı birləşmələrinin növbəti təxribatı nəticəsində azyaşlı Zəhra Quliyeva və Sahibə Quliyevanın qətlə yetirilməsi qəti şəkildə pislənilməlidir. Bildirilmişdir ki, insanlığa yaraşmayan bu hərəkət erməni terrorçularının uşaq qatili olduğunu bir daha sübuta yetirmişdir. Ermənistanın işğalçı hərbi birləşmələri tərəfindən təmas xəttinə yaxın ərazilərin atəşə tutulması, dinc əhalinin qətlə yetirilməsi Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bu vəhşilik bir daha göstərir ki, erməni təcavüzünün qarşısının alınmaması, beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin biganəliyi erməni terroristlərinin əl-qolunu açır və mahiyyət etibarı ilə dinc insanların vəhşicəsinə qətlə yetirilməsinə rəvac verir. İdarə Heyətinin iclasında qərara alınmışdır ki, Yeni Azərbaycan Partiyası əməkdaşlıq etdiyi partiyalara, parlamentarilərə müraciət edərək erməni silahlı birləşmələrinin növbəti vəhşiliyini və bu uşaq qatillərinin əməllərini pisləməyə səsləsin.

İdarə Heyətinin iclasında, həmçinin, 2017-ci ilin birinci yarısında həyata keçirilmiş tədbirlər və İdarə Heyətinin 2017-ci ilin ikinci yarımilliyinə dair iş planı müzakirə edilmişdir. YAP İdarə Heyətinin 2017-ci ilin birinci yarımillik fəaliyyəti haqqında hesabatı qəbul edilmişdir. Qeyd edilmişdir ki, 2017-ci ildə də Azərbaycanın iqtisadi və sosial həyatında inkişaf uğurla davam etdirilmişdir.

Vurğulanmışdır ki, 2017-ci ilin müvafiq dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirməklə ölkənin ictimai-siyasi həyatında yaxından iştirakını davam etdirmişdir. YAP beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində səylərini uğurla davam etdirmişdir. Xüsusilə müxtəlif ölkələrin aparıcı partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında işgüzar və səmimi münasibətlər daha da genişləndirilmiş, bir sıra mühüm görüşlər keçirilmişdir.

Qeyd olunmuşdur ki, 2017-ci ilin birinci yarım ilində Yeni Azərbaycan Partiyasının sıralarına 13 min nəfərdən çox yeni üzv qəbul edilmiş, bununla da partiya üzvlərinin sayı 700 min nəfəri keçmişdir. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil etmişdir.

İclasda YAP İdarə Heyətinin 2017-ci ilin birinci yarım ilinə dair hesabatı, İdarə Heyətinin 2017-ci ilin ikinci yarımilliyinə dair iş planı geniş müzakirə olunduqdan sonra qəbul olunmuşdur.

Yeni Azərbaycan Partiyasının rayon (şəhər) təşkilatlarında keçirilən konfranslar barədə geniş fikir mübadiləsi aparılmışdır.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş keçirilib



İyulun 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufsla görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Azərbaycana səfir təyin olunması münasibətilə Bert Skufsu təbrik edib, ikitərəfli əlaqələrin inkişafında ona uğurlar arzulayıb. Ölkələrimiz arasındakı münasibətlərə uyğun olaraq Naxçıvan-Belçika əlaqələrinin inkişaf etdiyini bildirən Ali Məclisin Sədri iqtisadi-ticarət və əczaçılıq sahəsindəki əməkdaşlıqdan danışıb, təhsil sahəsində əlaqələrin yaradılmasının və iş adamları arasında görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Səfir Bert Skufs səmimi qəbula görə minnətdarlıq edib və Naxçıvana səfərinin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Belçika Krallığı ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələrin məmnunluq doğurduğunu qeyd edən qonaq hər iki tərəfin maraqları daxilində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirib.



# Novruz Məmmədov: "Dünya ictimaiyyəti niyə susur?"

"İnsan haqlarının müdafiəsini özlərinin əsas missiyası hesab edən beynəlxalq qeyri-hökumət təşkilatları Alxanlı kəndini atəşə tutaraq uşaq və nənənin vəhşicəsinə qətlə yetirilməsi ilə bağlı görəsən niyə ağızlarını açıb, bir söz demirlər, nə səbəbə susurlar? Qəribədir, deyilmi?". SİA-nın xəbərinə görə, bu sözləri Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi, PA-nın şöbə müdiri Novruz Məmmədov özünün "facebook" səhifəsində yazıb. "Hesab edirəm ki, insan haqları məsələsində ədalətli və səmimi olsaydılar, bu sahəyə çox "diqqət yetirən" bir sıra böyük dövlətlərin rəsmiləri də Alxanlıda dinc insanların qətlinə münasibət bildirərdilər. Amma əfsuslar" - deyə, N.Məmmədov bildirib.

# Ermənistanın işğalçılıq və terror siyasətinə son qoymaq üçün beynəlxalq birlik təsirli tədbirlər görməlidir

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iyulun 4-də Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində həyata keçirdiyi növbəti təxribatla bağlı AZƏRTAC-a aşağıdakıları bildirib:***



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin AZƏRTAC-a açıqlaması

- İyulun 4-də Ermənistan silahlı qüvvələri qoşunların təmas xəttində növbəti irimiqyaslı təxribat həyata keçirərək Füzuli rayonunun Alxanlı kəndini iriçaplı silahlardan atəşə tutub, nəticədə biri uşaq, digəri isə yaşlı qadın olmaqla, iki nəfər qətlə yetirilib, bir nəfər yaralanıb, əhalinin mülkiyyətinə xeyli ziyan dəyib. Bu növbəti qanlı cinayət Ermənistandakı hərbi-siyasi rejimin terrorçu mahiyyətini, qeyri-insani və cinayətkar simasını bir daha açıq şəkildə bütün dünyaya nümayiş etdirib.

Son illər Azərbaycan dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli istiqamətində səylərini daha da gücləndirib. Prezident İlham Əliyevin qətiyyətli, prinsipial və düşünülmüş siyasəti sayəsində dövlətimiz həm diplomatik, həm də hərbi sahədə mühüm üstünlüklər əldə edib. 2016-cı ilin aprelində Ermənistan ordusunun davamlı təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı minlərlə hektar torpağın, strateji yüksəkliklərin işğaldan azad olunması ilə nəticələnib. Tarixi aprel qələbəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində dönüş nöqtəsi olub, danışıqlar prosesində ölkəmizin mövqeyini əsaslı şəkildə möhkəmləndirib.

Bu gün işğaldan azad olunmuş və təhlükəsizliyi təmin edilmiş ərazilərimizə yenidən həyat qayıdır. Prezident İlham Əliyevin tapşırığına əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddətdə bərpa olunub və kənd sakinlərinin istifadəsinə verilib. Cocuq Mərcanlı öz yurdlarından didərgin düşmüş bir milyondan artıq azərbaycanlı, bütün cəmiyyətimiz üçün əzəli torpaqlarımıza qayıdışın simvoluna çevrilib.

Uzun illərdir regionun siyasi və iqtisadi həyatından təcrid olunmuş, iqtisadi tənəzzül, sosial gərginlik şəraitində yaşayan Ermənistan indi həm də siyasi və hərbi sahədə ardıcıl məğlubiyyətlə üzləşir. Mövcud vəziyyət S.Sarkisyan cinayətkar rejiminin ölkə daxilində və xaricdə dayaqlarını ciddi şəkildə sarsıdıb. Görünür, Sarkisyan dinc azərbaycanlı əhaliyə qarşı davamlı şəkildə qanlı cinayətləri sanksiyalaşdırmaqla bir tərəfdən daxildə ona qarşı olan təzyiqləri neytrallaşdırmağa və hakimiyyətinin ömrünü uzatmağa, digər tərəfdən isə qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan azərbaycanlı əhalidə vahimə, psixoloji gərginlik yaratmağa çalışır.

Əslində, bu, uzun illərdir Ermənistanın cinayətkar rejiminin dinc azərbaycanlı əhaliyə qarşı terror və soyqırımı siyasətinin davamıdır. 1992-ci ildə Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərində, Xocalı şəhərində həyata keçirilmiş soyqırımları, habelə Azərbaycanın müxtəlif bölgələrində törədilmiş çoxsaylı terror aktları Ermənistan dövlətinin soyqırımı və terror siyasətini, əsl faşist mahiyyətini ifşa etmiş faktlardır. Sonrakı illərdə də bu siyasət ardıcıl şəkildə davam etdirilmişdir. 2016-cı ilin aprelində Ermənistan hərbi birləşmələri cəbhə xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrini atəşə tutmuş, nəticədə 5 dinc sakin qətlə yetirilmiş, 30-dan artıq insan yaralanmışdır.

Ermənistan BMT Təhlükəsizlik Şurası başda olmaqla, dünyanın nüfuzlu təşkilatlarının tələb və çağırışlarını qulaqardına vurur, beynəlxalq qanunvericiliyi pozur, 25 ildir ki, Azərbaycan ərazilərini işğal altında saxlayır. Təəssüf ki, beynəlxalq birlik, bilavasitə problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri bu günə kimi işğal faktının aradan qaldırılması və ədalətin bərpa olunması istiqamətində heç bir təsirli addım atmayıblar. Baxmayaraq ki, dünyanın müxtəlif nöqtələrində baş verən analoji münaqişələrin qısa zamanda tənzimlənməsi, işğalçının cəzalandırılması, ona qarşı müxtəlif təsirli sanksiyaların tətbiq edilməsinə dair çoxsaylı faktlar mövcuddur.

Azərbaycana qarşı bu dərəcədə açıq ikili standartların səbəbi nədir? Nəyə görə ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın getdikcə azğınlaşan terror və soyqırımı siyasətinə, dinc insanlara qarşı amansız davranışına göz yumur və adekvat reaksiya vermirlər? Hansı səbəbdən bu ölkəyə qarşı sanksiyalar tətbiq olunmur, məcburetmə tədbirləri həyata keçirilmir?

Hər fürsətdə insan hüquq və azadlıqlarını əlində bayraq edərək müstəqil dövlətlərə qarşı kampaniya həyata keçirən dairələrin, onların təsiri altında olan hüquq-müdafiə təşkilatlarının qadın və uşaqların qəddarcasına qətlə yetirilməsinə biganəliyi, laqeyd və susqun münasibəti nə ilə bağlıdır?

Əminliklə demək olar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlar siyasəti, cəzasızlıq mühiti Ermənistanın hərbi-siyasi rejiminin yeni cinayətlərini şərtləndirən başlıca səbəblərdir. Dünya birliyinin qətiyyətsizliyi şəraitində Ermənistan hakimiyyəti nəinki beynəlxalq təşkilatların qərar və qətnamələrini icra etməkdən boyun qaçırır, eyni zamanda, beynəlxalq humanitar hüququn, o cümlədən Ümumdünya İnsan Haqları Bəyannaməsinin, Cenevrə konvensiyalarının, onlara 1 saylı əlavə protokolun tələblərini, Uşaq Hüquqları haqqında Konvensiya çərçivəsində üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozaraq dinc azərbaycanlı əhaliyə qarşı cəza tədbirləri həyata keçirir.

Mövcud reallıq onu göstərir ki, artıq proseslər dözülməz həddə çatıb. Ermənistanın işğalçılıq, dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinə son qoymaq üçün beynəlxalq birlik qətiyyətli olmalı və vaxtı uzatmadan təsirli tədbirlər həyata keçirməlidir. Artıq dərk etməyin vaxtıdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil və hər an yenidən alovlana, bütün region üçün ciddi fəsadlar törədə bilər.

Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycan dövləti işğal faktı ilə heç vaxt barışmayacaq, öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü və əhalisinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir. Bu, sadəcə söz deyil, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə səsləndirilmiş prinsipial və dəyişməz mövqedir. Beynəlxalq birlik, ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın cinayətkar rejimi bu reallığı dərk etməlidirlər.

# Yeni Azərbaycan Partiyası dünya ictimaiyyətini erməni vəhşiliyinə son qoymağa çağırır

Yeni Azərbaycan Partiyası iyulun 4-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə atəşkəsi pozması nəticəsində Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində mülki şəxslərin həlak olması ilə nəticələnən hadisə ilə bağlı beynəlxalq təşkilatlara müraciət qəbul edib.

Müraciətdə qeyd olunur ki, iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni silahlı birləşmələrinin növbəti təxribatı nəticəsində azyaşlı Zəhra Quliyeva və Sahibə Quliyevanın qətlə yetirilməsi qəti şəkildə pislənilməlidir. İnsanlığa yaraşmayan bu hərəkət erməni terrorçularının uşaq qatili olduğunu bir daha sübuta yetirmişdir. Errmənistanın işğalçı hərbi birləşmələri tərəfindən təmas xəttinə yaxın ərazilərin atəşə tutulması, dinc əhalinin qətlə yetirilməsi Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bu vəhşilik bir daha göstərir ki, erməni təcavüzünün qarşısının alınmaması, beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin biganəliyi erməni terroristlərinin əl-qolunu açır və mahiyyət etibarı ilə dinc insanların vəhşicəsinə qətlə yetirilməsinə rəvac verir.

YAP -ın qəbul etdiyi müraciətdə qeyd olunub ki, erməni hərbi birləşmələri tərəfindən münaqişə ilə birbaşa bağlı olmayan ərazilərdə, təmas xəttindən uzaqda yaşayış məntəqələrinin və mülki əhalinin atəşə tutulması Ermənistanın dövlət siyasətinin tərkib hissəsidir. Erməni silahlı qüvvələrinin bu cür təxribatlar törətməsi, mülki insanları hədəfə alması Ermənistanın beynəlxalq humanitar hüquq əsasında üzərinə götürdüyü öhdəliklərin kobud şəkildə pozulmasıdır. Bu, eyni zamanda 1949-cu il Cenevrə konvensiyalarının və ona 1 saylı Əlavənin və hərbi münaqişələr zamanı sivil davranış qaydaları haqqında bəyannamə sənədlərin, o cümlədən uşaqların hüquqlarının və insan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Yeni Azərbyacan Partiyasının yaydığı müraciətdə qeyd olunub ki, bu hadisə Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranmış mövcud status-kvonun dəyişdirilməsinin vacibliyini bir daha sübut edir.

Qeyd olunub ki, müvafiq beynəlxalq təşkilatlar, xüsusilə münaqişənin həlli üçün məsuliyyət daşıyan ATƏT-in Minsk Qrupu insanlığa qarşı yönəlmiş bu cinayətə obyektiv münasibət bildirməli, təcavüzkar Ermənistana münasibətdə beynəlxalq hüquq müstəvisində qətiyyətli addımlar atılmalıdır.

Müraciətdə bildirilir ki, Ermənistan hakimiyyətinin gərginliyi artırmaq cəhdləri BMT Təhlükəsizlik Şurasının Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdiyi qətnamələrin təcili şəkildə icra olunmasının qaçılmaz olduğunu bir daha sübuta yetirir. Yeni Azərbaycan Partiyasının yaydığı müraciətdə dünya ictimaiyyətini, bütün beynəlxalq təşkilatları, dünya siyasətində aparıcı mövqeyə malik dövlətləri, o cümlədən beynəlxalq siyasi qurumları və partiyaları Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə öz töhfəsini verməyə, regionda bu qanlı münaqişə ocağının söndürülməsinə səylər göstərməyə çağırış yer almışdır.

# XİN: Rusiyanın münasibəti başa düşülən deyil

Rusiya Federasiyası Xarici işlər Nazirliyinin təkrarən erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycan ərazisinə daxil olması məsələsinə diplomatik etikadan kənar formada münasibət bildirməsi çox təəccüblü və başa düşülən deyil. Bu xüsusda Rusiya tərəfinin təqdim etdiyi qeyri-dost münasibət heç bir halda iki dövlət arasındakı strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun gəlmir. Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən açıqlamada yer alıb. Açıqlamada deyilir: "Ümumiyyətlə, Rusiya və Azərbaycan arasında diplomatik əlaqələr qurulduqdan sonra 25 il ərzində son dövrə qədər bu məsələ heç bir zaman gündəmə gəlməyib. İndiki zamanda Rusiya tərəfinin bu məsələdə həddən ziyadə fəallıq göstərməsini izah etmək çətindir.

Əvvəlcədən məlumatlandırma və xəbərdarlıq rejimi əsasında Azərbaycan tərəfindən müvafiq olaraq erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycan ərazisinə girməsi üçün şərait yaradılıb. Burada da hər hansı bir problem olmayıb. Bu günədək artıq yüzlərlə erməni əsilli Rusiya və digər ölkələrin vətəndaşlarının müvafiq ön xəbərdarlıqla Azərbaycan ərazisinə daxil olması təmin edilib. Dərin multikultural ənənələrə sahib müxtəlif etnik mənşəyə malik olan insanların azad birgəyaşayış məkanı olaraq Azərbaycan beynəlxalq və milli qanunvericiliyə əsasən öz milli və təhlükəsizlik maraqlarından çıxış edərək, xarici ölkə vətəndaşlarının öz ərazisinə buraxılıb-buraxılmamasına dair özü qərar verir. Rusiya tərəfi ATƏT-in Minsk Qrupunun həmsədri olaraq yaxşı bilir ki, Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş işğal və təcavüz nəticəsində ərazilərimizin 20 faizi işğal edilib və zəbt olunmuş ərazilərdə Azərbaycan xalqına qarşı qanlı etnik təmizləmə törədilib. Bir milyondan çox azərbaycanlı hələ də qaçqın və məcburi köçkün həyatını yaşayır.

Xocalı faciəsini xatırlatmaq istərdik ki, erməni əsilli digər ölkə vətəndaşlarının da bilavasitə iştirakı ilə Ermənistan silahlı qüvvələri tərəfindən bütün Xocalı sakinləri bir gecənin içində soyqırımına məruz qalmışlar. Bu il iyulun 4-də Ermənistan silahlı qüvvələrinin mülki Azərbaycan əhalisinə qarşı törətdiyi hücumlar və təxribatlar nəticəsində bir qadının və onun 2 yaşlı nəvəsinin ölməsi faktı Ermənistan tərəfindən mülki Azərbaycan əhalisinə qarşı bu kimi terror-təxribat siyasəti aparılmasının daha bir sübutudur".

XİN-in açıqlamasında bildirilir ki, xüsusən də belə bir həssas dönəmdə Rusiya tərəfindən erməni əsilli RF vətəndaşlarının Azərbaycan ərazisinə daxil olması məsələsinə bu cür diqqət yetirilməsi ciddi sualların yaranmasına səbəb olur. Ümumiyyətlə, məsələnin həssaslığını nəzərə alaraq heç bir ölkə tərəfindən bu məsələ qaldırılmadığı halda, Rusiyanın sözügedən məsələyə bu dərəcədə diqqət yetirməsi heç bir halda başa düşülən deyil. Təəssüflər olsun ki, ata və anasının qəbrini ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş Azərbaycan əsilli Rusiya vətəndaşı Dilqəm Əsgərovun taleyi ilə bağlı Rusiya tərəfindən biganəlik göstərilir. "Rusiya Federasiyası ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir və biz də gözləyirik ki, Rusiya Federasiyası öz üzərinə düşən məsuliyyətdən çıxış edərək münaqişənin tezliklə həll olunması istiqamətində səylərini daha da artıracaq və Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılacaq. Nəticədə regionda davamlı sülh və təhlükəsizlik təmin olunacaq. Bundan sonra insanların da sərbəst gediş-gəlişi üçün imkan yaranmış olacaq. Azərbaycan tərəfinin bu mövqeyi dəfələrlə müvafiq şəkildə Rusiya XİN-in diqqətinə çatdırılıb",- deyə açıqlamada qeyd olunur.

# Bahar Muradova: "ATƏT-in təsir imkanları artırılmalıdır"



ATƏT-in təsir imkanlarını artırmaq üçün onun mexanizm və resurslarından istifadəni daha da gücləndirməliyik. Bu fikri Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclis sədrinin müavini Bahar Muradova iyulun 6-da Minskdə ATƏT PA-nın demokratiya, insan hüquqları və humanitar məsələlər üzrə daimi komitəsinin iclasında çıxışı zamanı deyib. B.Muradova bildirib ki, ATƏT regionunda problemlər və münaqişələr artmaqdadır və bu təşkilata üzv olan ölkələr üçün ciddi siqnaldır. Sədr müavini qeyd edib ki, insan haqlarının pozulmasının təməlində münaqişələr durur. Demokratiya və insanların hüquqlarının müdafiəsi təhlükəsizliyin əsas qarantı hesab edilir.

"Münaqişə və müharibələr, terror aktları insanların ölümünə, onların həyatının dözülməz olmasına gətirib çıxarır. Baş verə biləcək humanitar fəlakətlərin qarşısını almaq üçün gücümüzü və səylərimizi birləşdirməliyik",- deyə Bahar Muradova vurğulayıb.

# Fransa mətbuatı dünya ictimaiyyətini Ermənistanı cəzalandırmağa çağırır



Fransanın "İslamnews", "l'express", "Mediapart" portalları, eləcə də "Le Monde" qəzeti iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni hərbiçilərin törətdiyi qanlı hadisədən yazır. Məqalələrdə 2 yaşlı Zəhranın və onun nənəsinin Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qurbanı olduğu diqqətə çatdırılır. Azərbaycan Xarici İşlər Nazirliyinin Füzuli rayonunun Alxanlı kəndində erməni hərbi qüvvələrinin törətdiyi qanlı hadisə ilə bağlı verdiyi məlumatdan söz açılır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən, torpaqlarımızın işğalından, münaqişə nəticədə bir milyondan çox azərbaycanlının öz doğma yurdundan didərgin salınmasından ətraflı bəhs olunur. Ermənistanın kiçik Zəhranın və nənəsinin ölümündə birbaşa məsuliyyət daşıdığı qeyd olunur. Yazılarda Ermənistanın təcavüzkar siyasəti, erməni hərbiçilər tərəfindən azərbaycanlı əsirlərə verilən işgəncələr barədə məlumat verilir. Həmçinin Ermənistanın Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağda həyata keçirdiyi etnik təmizləmə siyasətindən, Azərbaycan maddi-mədəniyyət abidələrinin dağıdılmasından danışılır.

Bildirilir ki, illərdir beynəlxalq ictimaiyyətin biganə qaldığı bu münaqişənin həllində Fransa da önəmli rol oynamalıdır. ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransa təzyiq göstərməlidir ki, beynəlxalq hüquqa riayət edilsin və Ermənistan regionda apardığı etnik təmizləmə siyasətinə görə cəzalandırılsın.

# Gürcüstan saytlarında Alxanlıda ermənilərin törətdiyi vəhşiliklərlə bağlı yazılar yerləşdirilib



Gürcüstan saytları ermənilərin iyulun 4-də Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törətdikləri təxribat və vəhşiliklərdən yazır. Nüfuzlu "NSP.GE" saytında ermənilərin açdıqları atəş nəticəsində sivil insanların, o cümlədən 2 yaşlı körpə uşağın həlak olduğu diqqətə çatdırılır. "Newspress" saytının yaydığı informasiyada da Ermənistan ordusunun atəşkəsi pozması nəticəsində mülki şəxslərin həlak olduğu xüsusi qeyd olunub. Hər iki saytda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbərinin AZƏRTAC-a müsahibəsinə, eləcə də AZƏRTAC-da yayımlanan digər xəbərlərə istinad olunur.

# Özbəkistanın ziyouz.uz portalı Alxanlıda törədilmiş faciə ilə əlaqədar məqalə verib



Daşkənddəki ziyouz.uz portalı Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində törədilmiş qanlı faciə ilə əlaqədar özbək dilində məqalə yer alıb. Materialda bildirilir ki, erməni silahlılarının iyulun 4-də axşam saatlarında Alxanlı kəndinə hücumu, 1966-ci ildə doğulmuş Sahibə Quliyeva adlı nənə və iki yaşlı nəvə Zəhra Quliyevanın qətlə yetirilməsi, Sərvinaz Quliyevanın isə ağır yaralanması beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasıdır. Dinc əhalinin o cümlədən iki yaşlı uşağın qətlə yetirilməsi heç bir etik qaydalara sığmır. Materialda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir, deyilir ki, 1989-1993-cü illərdə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və ona bitişik 7 rayonu işğal edib. 1994-cü ildə atəşkəs elan edilsə də ermənilər daim Azərbaycanın mövqelərini atəşə tutur, əsgərlər və dinc əhali həlak olur. Bildirilir ki, BMT Təhlükəsizlik Şurası işğalçı qoşunların Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə əlaqədar 4 qətnamə qəbul etsə də Ermənistan hələ də buna məhəl qoymur.

# Qətər böhranı: Yaxın Şərqi parçalama planının bir hissəsi



***"Ərəb baharı" adlanan qeyri-müəyyənlik və risklərlə dolu bir prosesin müsəlman ölkələrinə gətirdiyi faciələr davam edir. İraq, Suriya, Liviya və Misirdən sonra Qətəri ortaya atıblar. Lakin bu sonuncu ilə bağlı fərqli ssenarilərin qurulduğu hiss edilir. Belə ki, Qətərə qarşı bir neçə ərəb ölkəsini qoyurlar. Həm də bunu başqa müsəlman dövlətləri olan İran və Türkiyəyə qarşı yönəltmək şərti ilə edirlər. Dohadan tələb olunur ki, İranla əlaqələri ümumiyyətlə kəssin və Türkiyə ilə təhlükəsizlik sahəsində əməkdaşlıq etməsin. Kifayət qədər qərəzli, anti-müsəlman mahiyyətli və təxribatçı tələblərdir. Çünki müsəlman dövlətindən tələb edirlər ki, başqa müsəlman ölkələrinə düşmən kəsilsin və nicatı xristian ölkələrində tapsın. Nə yazıq ki, buna dəstək verən dörd müsəlman-ərəb ölkəsi də vardır. Bu kimi proseslərin fövqündə geosiyasi proseslərin hansı istiqamətdə dəyişə biləcəyi çox düşündürücüdür.***

## "Qətər baharı": yeni parçalama ssenarisi

Yaxın Şərqdə yeni bir böhran - Qətər böhranı əmələ gətirildi. Ümumiyyətlə, "ərəb baharı" adı altında başlanan müəmmalı proses İraq, Misir, Liviya, Suriya, Yəmənlə bağlı gərgin hadisələrlə müşayiət olunub. İndi onlara siyasi-diplomatik dildə "Qətər böhranı" deyilən yenisi əlavə olunub. Sonuncunun əvvəlkilərin hamısından fərqli bir özəlliyi var. Qətər böhranı ərəb dünyasının bir neçə ölkəsinin birlikdə Qətərə qarşı mövqe tutması ilə xarakterizə olunur. Əvvəllər belə bir hal mövcud deyildi. Ya Qərbin böyük dövlətləri hansısa ərəb ölkəsi ilə münaqişəyə girirdi (məsələn, ABŞ-İraq qarşıdurması, yaxud Qərb-Liviya toqquşması), ya da konkret ölkə daxilində iqtidara yerli qruplar tərəfindən siyasi-hərbi müxalif güc yetişdirilirdi (məsələn, Suriyada bir neçə radikal qruplaşmalar Bəşər Əsəd rejiminə qarşı mübarizəyə qalxdı) və sonra onlara kənardan dəstək verilirdi.

Bunların fonunda müsəlman İrana qarşı fərqli mövqe seçilib. Tehrana birbaşa hərbi müdaxilə edilmir, lakin onu nüvə silahı hazırlamaq bəhanəsi ilə müxtəlif istiqamətlərdən təzyiqə məruz qoyurlar. Bu zaman başda ABŞ olmaqla Qərb ölkələri vahid cəbhədə siyasi, diplomatik və hərbi mövqedən çıxış etməyə çalışırlar.

Bütün bunlardan Qətər məsələsi fərqlənir. Hiss olunur ki, konkret dairələr müsəlman dünyasına qarşı yeni səviyyədə təxribatçı fəaliyyətə keçiblər. Çünki artıq görünən mübarizə meydanında yalnız müsəlman ölkələri var. Meydanda hazırda Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn və Misir hücum edən, günahlandıran tərəf kimi, Qətər isə ittiham hədəfi olaraq mövcuddurlar.

Bunların yanında Türkiyə tamamilə Qətərin müdafiəçisidir, İran qismən bu mövqedə, Küveyt vasitəçi durumunda, Oman müəyyən dərəcədə bitərəfdir. Qəribəsi və düşündürücü odur ki, bu ixtilafın əsl sifarişçiləri olan ABŞ və Avropanın böyük dövlətləri nəsihətverici, aradüzəldən qismində görünməyə çalışırlar. Yəni müsəlman dövlətləri müqəddəs Ramazan ayında bir-biri ilə didişir, lakin xristian dövlətlər onları barışdırmağa cəhd edir. Situasiya doğrudan faciəvi, düşündürücü və təəssüfedicidir. Həm də ona görə ki, həmişə olduğu kimi, İsrailin bu proseslərə guya heç bir aidiyyəti yoxdur!

"Ərəb baharı"ndan start götürən bu əcaib, mürəkkəb və müsəlman dünyası üçün son dərəcə riskli prosesin hazırkı aktiv fazası olan Qətər böhranı hansı geosiyasi tendensiyaların əsasını qoya bilər? Hələlik ekspertlər bu sualı açıq surətdə qoymurlar. Lakin hadisələrin gedişatı artıq meydana bir sıra sualları çaxarmaqdadır.

Hər şeydən əvvəl hiss edilir ki, məsələ yalnız Qətərlə bağlı deyil. Okeanın o tayından olan sifarişdə Yaxın Şərqdə Türkiyə və İranın nüfuzunu heç etmək məqsədinə nail olmaq göstərişi vardır. Bunun üçün bir güllə ilə iki hədəfi vurmaq planı özünü göstərir.

Birincisi, ümumiyyətlə, son illər birləşmək üçün müəyyən addımlar atmış müsəlman ölkələrinin birliyini pozmaq gərəkdir. İslam ordusu yaranmışdı, müsəlman ölkələrin polis və kəşfiyyat orqanları koordinasiyalı hərəkət etmək qərarına gəlmişdilər. Artıq Yaxın Şərqdəki faciələrin arxasında Qərbin böyük dövlətlərinin olması barədə ortaq bir fikir formalaşırdı. Bu da regionda müsəlmanların ümumi düşməninin kim olduğu haqqında konkret təsəvvür yaradırdı. Bundan sonra həmin düşmənə qarşı birgə fəaliyyət mərhələsi gəlməli idi. Qətər böhranı məhz bu yolda ciddi əngəl kimi ortaya atılıb.

İkincisi, Qətər böhranı ilə konkret dairələr müsəlmanlara iki hədəfi düşmən kimi göstərir - Türkiyə və İran. Burada əsas məqsəd İrandır. Türkiyə isə regionda öz sözünü getdikcə daha qətiyyətli deyən və faktiki olaraq beynəlxalq terrorun Şərqə doğru sistemli irəliləməsinin qarşısını kəsən və bu mənada müəyyən dairələrin qlobal planlarını alt-üst edən güclü bir ölkədir.

## Təhlükəli savaş: risklər və təhlükələrdən qurtuluş

Ankara öz daxilində terror qruplarını darmadağın edib, sərhədləri xaricində onları vuran və bununla kifayətlənməyərək dünyanın harasında olmasından asılı olmayaraq terrora yardım edən dövlətləri sıxışdıran dünya gücünə çevrilməkdədir. Amerika, Rusiya və Avropa ölkələrində baş verən terror hadisələri göstərdi ki, istənilən böyük dövlət terrorun hədəfi halına gələ bilər. Bunlara İran da əlavə olundu.

Deməli, Türkiyə faktiki olaraq çox təhlükəli bir oyundan qalib çıxmaqdadır. Bundan sonra terrorun hansı böyük dövləti vuracağı isə bəlli deyil. O halda problemi yenidən Türkiyəyə qarşı yönəltməkdə hansısa dairələr maraqlı ola bilər. Başqa tərəfdən, Türkiyə nəinki öz daxili təhlükəsizliyini təmin edir, həm də Suriya, İraq, Qətər və başqa region dövlətlərinin təhlükəsizliyi üçün çalışır. O cümlədən Qətərdə hərbi baza yaradır. Eyni təklifi Səudiyyə Ərəbistanına verib. Türk əsgəri birlikləri Suriyada və İraqda mövcuddurlar. Türkiyə Qafqazda Gürcüstan və Azərbaycanla aktiv hərbi əməkdaşlıq edir. Belə görünür ki, böyük bir regionda Qərbə qafa tuta biləcək güclü müsəlman dövləti var - Türkiyə! Görünür, bu prosesin qarşısını kəsmək üçün ortaya yeni Qətər böhranını atıblar.

İran faktoru da Türkiyə qədər ciddidir. Tehran çoxdandır ki, Qərb dövlətlərini narahat edir. Ancaq İran hərbi qüdrətini artırmaqda və kənardan müsəlmanlar üçün qurulan bir çox oyunları pozmaqda davam edir. Amerikanın yeni rəhbərliyi bu vəziyyətə qarşı çox aqressiv mövqe tutmaqdadır. Əvvəlki mərhələlərdən fərqli olaraq, Donald Tramp daha hiyləgər və təhlükəli xətt seçib - o, bir qrup müsəlman dövlətini İrana qarşı qaldırmağa çalışır.

Bunun üçün Səudiyyə Ərəbistanına külli miqdarda silah satır, Qətərə də eyni təklifi verməklə onu Tehrana qarşı qoyur, Birləşmiş Ərəb Əmirlikləri kimi sözəbaxan müsəlman ölkəsini bu prosesə qoşur və onların kölgəsində digər ölkələri İrana qarşı yönəltməyə cəhd edir. Əgər bu plan baş tutsa, müsəlman dövlətləri arasında uzunmüddətli ixtilaf yarana bilər ki, sonucda onların hamısı çox zəifləyər.

Kənar qüvvələr isə həm silah satıb pul qazanmış olur, həm də İslam sivilizasiyasına ciddi zərbələr endirir. Bundan sonrakı hədəflər də məlumdur - Rusiya və nəhayətdə Çin! Təbii ki, arada müsəlman dövlətçiliyi çox böyük zərbələr ala bilər və meydana yeni oyuncaq dövlətlər çıxar. Onların əsas vəzifəsi regionda ara qarışdırmaq, müsəlmanları daim təşvişdə saxlamaq, intriqalar meydanına çevirmək kimi neqativ rolu yerinə yetirmək olar.

Bunlar Qətər böhranını "ərəb baharı" ilə bağlayan mürəkkəb və müəmmalı geosiyasi-hərbi və siyasi-ideoloji prosesin konkret bir mərhələsi kimi dəyərləndirməyə imkan verir. Bu, kimlərinsə Yaxın Şərqin yaxşı gələcəyi üçün regionu terrorçulardan təmizləmək niyyəti ilə bağlı deyil. Əksinə, süni surətdə terror qrupları yaradıb, onlarla mübarizəni imitasiya edərək sonra "terrorçulardan təmizlənmiş" yerlərə kənara qulluq edən qüvvələri yerləşdirmək priyomundan başqa bir şey deyildir. Nə yazıq ki, özünü böyük müsəlman dövləti sayan bir sıra oyuncaq rejimlər də buna xidmət etməkdədirlər.

Vurğulanan məqamlar kifayət qədər təhlükəli tendensiyanın meydana gəldiyindən xəbər verir. Qətər məsələsi hələlik təkdir. Lakin onun yanına bir başqa böhranı da qoya bilərlər. Bu hansı dövlətlə bağlı olacaq? Bunu demək çətin olsa da, qurban verilməli olan müsəlman ölkəsini həmişə tapa bilirlər. Prosesin belə bir istiqamətdə inkişafı və genişlənməsi gözlənilir. Ancaq kənar qüvvələrin oyununu poza bilən müsəlman ölkəsi, yaxud ölkələri də meydana çıxa bilər. Bu variantlardan hansının reallaşacağını yaxın illərdəki proseslər göstərəcək. Hələlik biz Yaxın Şərq üçün parçalanma riskinin yüksək olduğunu deməklə kifayətlənməli oluruq.

**Newtimes.az**

# Almaniya saytı Ermənistan hərbçilərinin azərbaycanlı dinc sakinləri qətlə yetirməsindən yazıb

***Almaniyanın "Eurasinews" saytında iyulun 4-də Ermənistan tərəfindən cəbhə xətti boyunca atəşkəsin pozulmasına və erməni silahlı qüvvələrinin dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri vəhşiliklərə dair məqalə dərc edilib.***

Məqalədə Dağlıq Qarabağ regionunun və ətraf 7 rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından, 1994-cü ildə tərəflər arasında razılaşdırılmış atəşkəsin Ermənistan tərəfindən pozulması nəticəsində mülki azərbaycanlı əhalinin itkilərə məruz qalmasından bəhs edilir.

Qeyd olunur ki, iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Füzulu rayonunun Alxanlı kəndinə ağır artilleriyada atəş açması nəticəsində biri uşaq olmaqla iki dinc sakin həlak olub, bir nəfər ağır yaralanıb.

Yazıda bildirilir ki, Azərbaycan tərəfi hadisədən dərhal sonra beynəlxalq təşkilatları məlumatlandırıb, ATƏT-in Minsk qrupundan baş vermiş son insidentin araşdırılması tələbi ilə çıxış edib.




Məqalədə, həmçinin Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin ermənilərin dinc əhaliyə atəş açmasını vandalizm aktı kimi dəyərləndirdiyi bildirilir. Sonda Türkiyənin cəbhə xəttində baş vermiş insidentdən dərhal sonra bəyanatla çıxış edərək erməni vəhşiliklərini pislədiyi diqqətə çatdırılır.

# YAP Qadınlar Şurası Füzuli rayonunun Alxanlı kəndində mülki şəxslərin həlak olması ilə nəticələnən hadisə ilə bağlı bəyanat verib

***Yeni Azərbaycan Partiyası Qadınlar Şurası iyulun 4-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə atəşkəsi pozması nəticəsində Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində mülki şəxslərin həlak olması ilə nəticələnən hadisə ilə bağlı bəyanat verib.***

Bəyanatda qeyd olunub ki, bu hadisə, öz növbəsində, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan təcavüzkar Ermənistanın terrorçu mahiyyətini növbəti dəfə göstərir: "İndi artıq dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Ermənistan mütəmadi olaraq beynəlxalq hüquq normalarını pozaraq bu cür təxribatlara əl atır, mülki şəxsləri hədəfə almaqla öz işğalçı mahiyyətini nümayiş etdirir. Atəşkəs rejimi ərzində dəfələrlə bu cür təxribatlara əl atan Ermənistan silahlı birləşmələri yenə də atəşkəsin tələblərini və beynəlxalq hüquq normalarını pozaraq mülki əhaliyə qarşı cinayət əməli tətbiq edirlər. Bu isə erməni xislətini, işğalçı Ermənistanın rəhbərliyinin aciz mahiyyətini - iç üzünü bir daha bütün dünyaya nümayiş etdirir".

Diqqətə çatdırılıb ki, ölkəmizin qüdrətli siyasi qüvvəsi olan Yeni Azərbaycan Partriyasının Qadınlar Şurası qətiyyətlə bəyan edir ki, beynəlxalq təşkilatlar bu hadisəyə biganə qalmamalı, beynəlxalq hüququn tələblərinə əməl edilməli, təcavüzkar Ermənistana qarşı islahedici tədbirlər görülməli, müvafiq reaksiya göstərilməlidir.

"Bu gün bütün dünya sülh və əmin-amanlıq məramı ilə yaşayır. Hər bir insan taleyi dünyanın bütün sərvətlərindən dəyərli olmalıdır. Dünyaya yeni göz açmış qızcığazın - heç bir günahı olmayan varlığın vəhşicəsinə qətlə yetirilməsi bütün dünya analarının qəzəb, nifrət və etirazına səbəb olmalıdır. Analar bütün ömürlərini övladlarının səadətləri naminə həsr etməyə hazırdırlar. Qətlə yetirilən düşmənlə cəbhədə üz-üzə dayanmış əsgər deyil, heç bir günahı olmayan, məsum, mələk kimi bir qızcığazdır. Biz bunu Azərbaycan analarının taleyinə açılmış atəş kimi qəbul edirik. Torpaqlarımızın işğal etmələri bəs deyilmiş kimi, indi də günahsız övladlarımızı qətlə yetirirlər. Dünya anaları bu məsələyə öz münasibətlərini bildirməlidirlər. Biz Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının üzvləri, Azərbaycan anaları yüz illərlə çörəyimizi yeyib, suyumuzu içib, torpağımızın üzərində əmin-aman yaşayan, körpə balalarımızın qanına susayan nankor ermənilərə dünya analarının öz nifrətini, etirazını bildirmələrini tələb edirik. Bu qətl, al qana boyanmış bu günahsız qızcığazın ömrünə vəhşicəsinə son qoyulması dünya anaları daxildən silkələməlidir. Çünki bu vəhşiliyin, ədalətsizliyin dünyada qarşısı alınmasa, sabah hər bir ananın övladına tuş gələ bilər!"-deyə, bəyanatda qeyd edilib.

# Misirin aparıcı KİV-ləri Ermənistan ordusunun Azərbaycanın Alxanlı kəndində törətdiyi qanlı cinayətdən yazır

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törədilən qanlı cinayət barədə Azərbaycan Respublikasının Misirdəki səfirliyinin bəyanatı bu ölkənin nüfuzlu və geniş oxucu kütləsinə malik Yaxın Şərq Xəbərlər Agentliyi, Asiyaelyoum Xəbərlər Agentliyi, "Youm7", "Masralarabia", "Shabab Əl-Nil" qəzetləri tərəfindən geniş şəkildə işıqlandırılıb.



Səfirliyin bəyanatda iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin və mülki obyektlərinin məqsədli şəkildə atəşə tutması nəticəsində nənə və nəvənin həlak olmasından söhbət açılır, erməni vəhşiliyi və terroru barədə Misir ictimaiyyətinə ətraflı məlumat verilir. Diqqətə çatdırılır ki, Ermənistan Azərbaycanın 20 faiz torpaqlarını indiyədək işğal altında saxlayır, münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməni yerinə yetirmir, sülh danışıqlarından boyun qaçırır.

# Azərbaycan Alxanlı kəndində atəş nöqtələrinin olmadığını sübut etdi

İyulun 6-da Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, Respublika Baş Prokurorluğu və Füzuli Rayon İcra Hakimiyyəti Azərbaycanda akkreditə olunmuş hərbi attaşelərin və xarici kütləvi informasiya vasitələri nümayəndələrinin (KİV) Ermənistan silahlı bölmələri tərəfindən atəşə tutulması nəticəsində iki dinc kənd sakininin həlak olduğu Alxanlı kəndinə səfərini təşkil ediblər.




Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu ərazidə Azərbaycan Silahlı Qüvvələri bölmələrinin qərargahının və atəş nöqtələrinin olmadığını sübut edən dəlillər onlara yerində təqdim olunub.

Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, hərbi attaşelər və KİV nümayəndələri kənd ərazisində Silahlı Qüvvələrin bölmələrinin heç bir qərargahının və atəş nöqtələrinin olmadığına yerində əmin olublar.

Bu fakt bir daha təsdiq edir ki, Ermənistan silahlı bölmələrinin əsas hədəfi dinc Azərbaycan əhalisi olub. Ermənistan tərəfinin kənd ərazisində guya hərbi bölmələrimizin olması barədə yaydığı məlumat dezinformasiya və yalandır.

# Misirin Yazıçılar Birliyinin sədri: 2 yaşlı Zəhranın öldürülməsi insanlıq əleyhinə cinayətdir

Misirin Yazıçılar Birliyinin sədri doktor Alə Əbdül Hədi 2 yaşlı Zəhranın öldürülməsini insanlıq əleyhinə cinayət adlandırıb. Alə Əbdül Hədi iyulun 4-də erməni silahlı qüvvələrinin törətdiyi qanlı hadisə nəticəsində 2 yaşlı Zəhranın qətlə yetirilməsini qətiyyətlə pislədiyini bildirib.



O, heç bir insanın buna izah verə bilmədiyini, bu hadisənin insanlıq əleyhinə cinayət və vəhşilik olduğunu vurğulayıb.

Alə Əbdül Hədi dünyanın bütün sülhpərvər qüvvələrini bu hadisəni qınamağa çağırıb.

Qeyd edək ki, iyulun 4-də axşam saatlarında erməni silahlı birləşmələri Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan atəşə tutub. Təxribat nəticəsində Alxanlı kənd sakinləri - 1967-ci il təvəllüdlü Allahverdiyeva (Quliyeva) Sahibə İdris qızı və onun nəvəsi 2015-ci il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı həlak olub, 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı isə ağır yaralanıb.

# İran saytı Ermənistana: "Uşaqları qətlə yetirən vəhşi rejim"

İranın "Yol Press" saytı Ermənistanın Füzuli rayonunun Alxanlı kəndini artilleriya atəşinə tutması nəticəsində 2 yaşlı Azərbaycan vətəndaşı Zəhra Quliyevanın öldürülməsi haqqında yazıb. Yazıda Ermənistan hökuməti "uşaqları qətlə yetirən vəhşi rejim" adlandırılıb. Qeyd olunub ki, işğalçı Ermənistanın silahlı bölmələri atəşkəsi pozaraq Azərbaycanın dinc əhalisini hədəfə alır. Sayt "Teleqram" sosial şəbəkəsində "Zəhra üçün dua et" kompaniyasına başlayıb. İran ictimaiyyəti ermənilər tərəfindən azyaşlı uşağın qətlə yetirilməsindən hiddətlənib. "Yol Press" saytında balaca Zəhranın öldürülməsi ilə bağlı verilən xəbərin altında yazılan şərhlər bu hiddəti göstərir. Şərhlərdə Ermənistan lənətlənərək Azərbaycan torpaqlarının işğalçısı kimi göstərilir. Qeyd olunub ki, ermənilərin 2 yaşlı uşağı və onun nənəsini öldürməsi insanlığa sığmayan hərəkətdir.

# Nəcməddin Sadıkov beynəlxalq konfransda iştirak edəcək

Silahlı Qüvvələrin Baş Qərargah rəisi Beynəlxalq Konfransda iştirak edəcək. SİA-nın Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov 6-7 iyul tarixlərində Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında keçiriləcək Baş Qərargah Rəislərinin ikinci Beynəlxalq Konfransında iştirak etmək üçün Nyu-York şəhərinə yola düşüb.

# Bəhruz Quliyev: “UNEC modeli” formalaşıb”

***UNEC-də yay imtahan sessiyası ilə bağlı sonuncu “Açıq qapı” günü keçirilib. SİA-nın verdiyi məlumata görə, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən “Açıq qapı”da UNEC rektoru, professor Ədalət Muradov, millət vəkili Zahid Oruc, “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev və “525-ci qəzet”in müxbiri Sevinc Qarayeva 30-dan çox müraciəti dinləyiblər. Rektor UNEC tələbələri, valideynləri və universitet əməkdaşlarının müraciətlərinin operativ həlli ilə bağlı müvafiq struktur bölmələrə göstəriş verib.***



UNEC-də keçirilən “Açıq qapı”da ilk dəfə iştirak etdiyini bildirən millət vəkili Zahid Oruc görüşdən müsbət təəssürat aldığını vurğulayıb: “Hər zaman deyirik ki, ölkənin bünövrəsi onun təhsili üzərində qurulub. Mən UNEC-in doğru yolda olduğunun bir daha şahidi oldum. UNEC-in rəhbərliyinin əməkdaşlara, tələbələrə, valideynlərə, ictimaiyyət nümayəndələrinə əlçatanlığını təqdirəlayiq hesab edirəm. Bu, universitetin müsbət imicini formalaşdırmaqla yanaşı, ali məktəbdə tətbiq edilən yeniliklərə maneə törədən qüvvələri də aradan qaldırır. Hesab edirəm ki, UNEC-də həyata keçirilən yeniliklər qısa müddətdə onu beynəlxalq məkanda tanınmış təhsil ocağına çevrəcək. UNEC-in idarəetmə sistemi, məzunları Azərbaycanın gələcək iqtisadi, siyasi idarəetməsinə uğurla daxil olacaqlar”. “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev UNEC-də ictimai nəzarət institutunun formalaşdığını diqqətə çatdırıb. “Açıq qapı” günündə müraciətlərə obyektiv yanaşıldığını vurğulayan B.Quliyev onların böyük əksəriyyətinin müsbət həll olunduğunu bildirib. O, qeyd edib ki, Azərbaycan Dövlət İqtisad Universitetində həyata keçirilən islahatlar, tətbiq edilən yeniliklər cəmiyyətdə artıq “UNEC modeli” formalaşdırıb.

# Balaca Zəhranın öldürülməsi ilə bağlı ABŞ-ın Arizona Nümayəndələr Palatasının üzvü Ermənistan prezidentinə açıq məktub göndərib

***İyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonun Alxanlı kəndinin mülki əhalisini atəşə tutması nəticəsində 1967-ci il təvəllüdlü Sahibə Quliyeva və onun nəvəsi 2 yaşlı Zəhra Quliyevanın öldürülməsi ilə bağlı ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının üzvü Donald Şuter Ermənistan prezidenti Serj Sarqsyana açıq məktub ünvanlayıb. Məktubun bir surəti Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna göndərilib.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, məktubda mülki vətəndaşların, xüsusilə də uşaqların qətlə yetirilməsinin tamamilə qeyri-məqbul olduğu və beynəlxalq hüquq normalarını ciddi şəkildə pozduğu qeyd olunur.

Ermənistan-Azərbaycan münaqişəsi barədə danışan D.Şuter Azərbaycanın suveren ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsinin və etnik təmizləməyə məruz qoyulmasının çağdaş Avropa tarixinin ən qara səhifələrindən biri adlandırır. O, bu ədalətsizliyin yüz minlərlə azərbaycanlı məcburi köçkünün məşəqqətinə səbəb olmaqda davam etdiyini ürək ağrısı ilə vurğulayır.

Münaqişə zamanı azərbaycanlı mülki əhaliyə qarşı Ermənistan qoşunları tərəfindən müxtəlif qəddarlıqların törədildiyini qeyd edən D.Şuter bu səpkidə Xocalı soyqırımını diqqətə çatdırır. O qeyd edir ki, yüzlərlə uşaq, qadın və yaşlıların qətlə yetirildiyi bu qətliam müharibə və münaqişələrin mülki şəxslərə vurduğu böyük ziyanların bariz göstəricisidir.



REPRESENTATIVE
DONALD SHOOTER

House Appropriations, Chairman

Arizona State Legislature
1700 West Washington
Phoenix, Arizona 85007

LEGISLATIVE DISTRICT 13

July 6, 2017

Mr. Serzh Sargsyan
President of the Republic of Armenia

Dear President Sargsyan:

I am shocked and appalled by the news of killing of a 2-year-old Azerbaijani girl Zahra Quliyeva and her grandmother Sahiba Quliyeva by the armed forces of the Republic of

Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin indiyədək yerinə yetirilməməsinin təəssüf doğurduğunu diqqətə çatdıran D.Şuter bu münaqişənin bu gün Cənubi Qafqazdakı təhlükəsizliyə ən böyük hədə olduğunu vurğulayır.

Sonda mülki əhalinin hədəfə alınmasını tamamilə qəbuledilməz olduğunu qeyd edən D.Şuter balaca Zəhra və onun nənəsinin öldürülməsini qətiyyətlə pislədiyini bildirir, Ermənistan prezidentini bu dəhşətli cinayəti pisləməyə və bu cinayəti törədənləri tezliklə taparaq məsuliyyətə cəlb etməyə, eləcə də belə faciələrin təkrarlanmaması üçün müvafiq tədbirləri görməyə çağırır.



## ZƏHRAYA REKVİYEM

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***1 il 8 aylıq həyatında yenicə ayaq açmış balaca Zəhra dünyanın gərdişindən bixəbər şəkildə öz oyuncaqları ilə oynayırdı. Bəlkə də, oynaya-oynaya öz fidan qəlbində xəyallarını qurur, atasının evə gələrkən, ona hansı sevdiyi şirnini alacağını düşünürdü. Nənəsi Sahibə də sevimli nəvəsinə kənardan baxıb qürrələnirdi, o da qız nəvəsinin necə şirinliyinin intəhasızlığını görür və onun gələcəyi barədə fikirlərinə qanad vermişdi. Məktəb, ali məktəb, nişan, toy... “Ehhh, bircə Allah-Taala ömür versəydi, bütün bunları görüb, rahatca gözlərimi yumardım”-deyə Sahibə nənə dərin fikirlərə daldığı bir andaca...***

Bir cinayətkar, qaniçən mərmisi xəyallar, arzular həyatını hədəf seçərək, hər şeyi alt-üst etdi. O cinayətkar mərmisi iki arzular quran həyata çox ağır bir nöqtə qoydu. Elə bir nöqtə ki, hər birimizin sinəsinə dağ çəkildi, hər birimizin qəlbi o qəlblərlə birgə dayandı, sükuta qərq oldu. İndi o fidan Zəhra balamız ona ağı deyən dillərə, ağlayan gözlərə, parçalanan ürəklərə təskinlik verir, ancaq onu kimsə eşitmir. Ancaq biz bu şəhid qızcığazın təskinliyi barədə düşünə bilərik bəlkə də...Məsələn, Zəhramız deyir ki, cinayətkar mərmisi onun öz oyuncaqları ilə oynayıb xəyallar qurduğu həyətə düşərkən, qəlpələr canını ağrıtdı, fəqət, bu ağrılar tez keçdi və o, birdən-birə səmaya doğru yüksəldi.

Zəhramız bizlərə təskinlik verir ki, indi yeri rahatdır və orada Xocalıdan, Ağdamdan, Şuşadan, Cəbrayıldan, Kəlbəcərdən, Laçından, Qubadlıdan, Xocavənddən, Füzulidən, Ağdərədən uşaqlar var. O uşaqlar da səmaya necə ucalmaları, yüksəlmələri barədə danışarkən, canlarındakı ağrıların necə tez keçməsini bir-birilərinə şirin dilləri ilə danışırlar. Hətta orada elə uşaq var ki, işıq üzü görməmiş, elə ana bətnindən çıxarılaraq, səmalara doğru yüksəlib. Onların yeri gül-çiçəkli, çil-çıraqbanlıdır. Hətta ürəklərindən hansı oyuncağı keçirirlərsə, dərhal ona sahib də olurlar. Darıxdıqları isə, sadəcə, yer üzündə qalan sevənləridir. Zəhracığımız da ata-anası üçün darıxmağa başlayıb. Amma atasının yer üzündə bir azacıq işləri var - ona mərmi atan cinayətkarın, qaniçən quzğunun boğazını üzmək, ona bala dərdi yaşadanlara yer üzündə cəhənnəm yaşatmaq. Sonrası isə Allah Kərimdir...

## Pakistan səfirliyinin hərbi attaşesi: Dinc sakinlərin öldürülməsi ağlagəlməzdir



Biz Alxanlıya gələrək, hadisə yerini öz gözlərimizlə gördük, insanlarla görüşdük. Ermənilərin açdığı atəş nəticəsində dinc insanların - balaca Zəhranın və onun nənəsinin qətlə yetirilməsi ciddi narahat doğuran faktdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Baş Prokurorluq və Füzuli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Füzuli rayonunun Alxanlı kəndinə səfər edən Pakistanın ölkəmizdəki səfirliyinin hərbi attaşesi Seyid İmran Ali deyib. Pakistan səfirliyinin rəsmisi bildirib ki, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyi var: “Biz düşünürük ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsi ilə həll olunmalıdır. Bu qətnamələr Azərbaycanın mövqeyini qoruyur. Bu, Pakistan üçün mühümdür. Biz hər zaman Azərbaycan xalqı ilə birlikdəyik”. “Alxanlıda mülki əhaliyə atəş açılıb. Buradakı insanlar silahlı deyildilər, onlar günahsız dinc sakinlər idilər. Dinc sakinlərin öldürülməsi isə ağlagəlməzdir və bu, qınanılmalıdır”, - deyə Pakistan səfirliyinin hərbi attaşesi qeyd edib.

## Musa Qasımlı: “Təcavüzkarın vəhşi hərəkəti cavabsız qalmayacaq”



“İşğalçı Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdə mülki əhalini hədəf alması, xüsusən, Füzuli rayonunun Alxanlı kəndində yaşlı qadın və azyaşlı qız uşağını vəhşicəsinə öldürməsi bu qondarma dövlətin təcavüzkar, terrorçu mahiyyətindən xəbər verir və əsl vəhşilikdir”. Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib. Onun sözlərinə görə, hərbçilərin olmadığı bir yaşayış məntəqəsində mülki əhalinin hədəf seçilməsi azərbaycanlıların gözünü qorxutmağa yönəlib: “Xüsusən, Prezidentimiz İlham Əliyevin sərəncamına əsasən bərpa edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə insanların qayıdışı işğalçı ölkəni narahat edir. Təcavüzkar ölkə təmas xəttindəki kəndlərdə erməniləri saxlaya bilmir. Onlar qaçıb gedirlər. İşğalçı ölkənin bu vəhşilik hərəkətinə ATƏT-in Minsk qrupunun həmsədrləri və beynəlxalq təşkilatlar belə hərəkətlərə konkret və qəti münasibət bildirməlidilər. Heç şübhəsiz, təcavüzkarın bu vəhşi hərəkəti cavabsız qalmayacaq və layiqli cavabı alacaq. Bütün baş verənlər üçün məsuliyyət işğalçı, cinayətkar Ermənistanın üzərindədir”.

## Mələhət İbrahimqızı: "Minsk Qrupu hadisəyə obyektiv qiymət verməlidir"



"Minsk Qrupu özündə cəsarət tapıb bu hadisəyə obyektiv qiymət verməlidir". Bu fikri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Mələhət İbrahimqızı deyib.

M.İbrahimqızı bildirib ki, ermənilər tərəfindən öldürülən qadına və uşağa təkcə azərbaycanlı olduğu üçün yox, bir bəşər övladı olduğu üçün dəyər verilməlidir. Onun sözlərinə görə, Minsk Qrupunun mövqeyində ciddi dəyişiklər olmalıdır. "Həmsədrlərin bəyanatında yenə də ümumi fikirlər əks olunur. Onların bu mövqeyi təəssüf doğurur. Həmsədrlər qadın və uşaqların qatillərinə qarşı sərt mövqe bildirməlidir. Amma görünən odur ki, Minsk Qrupu dolayısı ilə erməni tərəfinin maraqlarına uyğun bəyanatlar səsləndirir. Bu, yolverilməzdir"- deyə, M.İbrahimqızı vurğulayıb.

## Elmar Məmmədyarov Malena Mardın Azərbaycan-Aİ əməkdaşlığının inkişafına töhfəsini yüksək qiymətləndirib



Xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Malena Mardla diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Elmar Məmmədyarov Malena Mardın fəaliyyəti müddətində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına verdiyi töhfələrinin yüksək qiymətləndirildiyini bildirib. Malena Mard fəaliyyəti dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı istiqamətində səylərini əsirgəmədiyini diqqətə çatdırıb. Elmar Məmmədyarov Malena Marda gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Hüseyn Bağırov Balakəndə vətəndaşlarla görüşüb



Ekologiya və Təbii Sərvətlər Naziri Hüseyn Bağırov Balakən şəhərində yerləşən Mədəniyyət Mərkəzində Balakən, Qax, Zaqatala və Şəki rayonlarında yaşayan vətəndaşlarla görüşüb. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, qəbul zamanı 40-a yaxın vətəndaşın şikayət və təklifləri dinlənilib, müraciətlərinə baxılıb. Vətəndaşların müraciətləri əsasən ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, geologiya və s. məsələlərlə bağlı olub. Sakinlərin probleminə diqqətlə yanaşan nazir qəbula yazılmış vətəndaşların müraciətlərinin dəqiqliklə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə nazirliyin müvafiq strukturlarının rəhbərlərinə konkret tapşırıqlar verib. Eyni zamanda, vətəndaşlar tərəfindən verilən müxtəlif təkliflər qeydə alınıb, onları narahat edən məsələlər isə araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün nəzarətə götürülüb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

# Siyasi ekspert: "Növbəti erməni təxribatı humanizm dəyərlərinə qarşı atılan aşkar həyasızlıq aksiyasıdır"

***"Füzuli rayonunun Alxanlı kəndində nənə və nəvəsinin işğalçı Ermənistan ordusunun atəşi nəticəsində qətlə yetirilməsi bir daha sübut edir ki, cinayətkarların toplaşdığı bu ölkədə heç bir insan hüquqlarına, heç bir bəşəri dəyərlərə qiymət verilmir".***



Bunu trend-ə siyasi ekspert Behruz Quliyev sözügedən qanlı cinayət hadisəsini şərh edərkən deyib. Onun fikrincə, qadın, uşaq, qoca olmasına əhəmiyyət verməyərək müasir dünyamızda bu cür barbarlığın aşkar şəkildə sərgilənməsi bir daha belə qənaətə gəlməyə əsas verir ki, cinayətkar Serj Sarkisyan rejimi öz atalarının yollarını davam etdirirlər: "Biz tarixi faktları araşdırarkən dəfələrlə erməni daşnaklarının, müxtəlif terror təşkilatlarının türk dünyasına, Azərbaycan xalqına qarşı amansızlıqlarının şahidlərinə çevrilmişik. İstər XX əsrin əvvəllərində və sonlarında, istərsə də XXI əsrdə onların dəyişilməyən cinayətkar düşüncələri öz qüvvəsində qalmaqdadır. Uzağa getməyərək, ötən əsrin sonlarında baş vermiş Xocalı soyqırımını xatırlaya bilərik. Qadın, uşaq, yaşlı, gənc demədən hər kəsi xüsusi qəddarlıqla qətlə yetirən erməni faşistlərinin müasir dünyada da eyni əməllərindən geri qalmamaları onların çirkaba bulaşmış və mənşəyi bilinməyən genlərində formalaşmış cəlladlıqlarının bariz göstəricisidir. Təəssüf ki, baş verən Alxanlı olayı da bu qəbildəndir və bu gün dünya birliyi, beynəlxalq mətbuat qurumları, nüfuzlu siyasi təşkilatlar sadəcə "dişsiz" bəyanatlar verməklə, ya da ümumiyyətlə, sakit dayanmaqla işlərini bitmiş hesab edirlər. Halbuki, ortada amansız cinayət faktı var və bu fakt humanizm dəyərlərinə qarşı atılan aşkar həyasızlıq aksiyasıdır". "Eyni zamanda, biz növbəti dəfə Azərbaycana qarşı ikili standartların tətbiq edildiyini gördük", - deyən B.Quliyev vurğulayıb ki, xüsusilə, Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməli olduğunu dəfələrlə bəyan edən ATƏT-in Minsk Qrupunun heç bir təməlli təsirə malik olmayan bəyanatı buna bir sübutdur: "Təəssüf edirəm ki, Azərbaycanda məişət zəminində baş verən istənilən bir olayı siyasiləşdirərək, bunu ölkəmizə qarşı istifadə edən bir sıra xarici insan haqları təşkilatları Alxanlı cinayəti barədə bir kəlmə də olsun fikir səsləndirmədilər. Bu səbəbdən erməni işğalçıları daha da azğınlaşaraq münaqişə zonasına yaxın yerləşən Azərbaycan kəndlərini daim atəş altında saxlayırlar. Artıq belə də deməyə əsas yaranır ki, cinayətkar Ermənistan rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqlarında qeyri-konstruktiv mövqeyi və beynəlxalq qurumların sülhə məcburetmə təşəbbüslərinin yetərsizliyi bu cür ağır cinayətlərin artmasına zəmin yaradır". Siyasi ekspert son olaraq bildirib ki, mülki azərbaycanlı əhaliyə qarşı törədilən bənzər cinayətlərə söz yox ki, Azərbaycan dövləti və Ordusu tərəfindən sərt cavab verilir: "Lakin bu da bütövlükdə Qafqaz regionunda yeni müharibə alovunun yaranmasına səbəb ola bilər. Bütün bunlara baxmayaraq, işğal altında qalan ərazilərimizin azad edilməsi hər birimiz üçün vətəndaşlıq mövqeyidir. Biz inanırıq və qətiyyən şübhə etmirik ki, torpaqlarımız tezliklə düşmən tapdağından azad olunacaq və cinayətkarlar öz cəzalarını alacaqlar".

# Alxanlı sakinləri beynəlxalq təşkilatlardan haqq-ədalətin təmin olunmasını istəyir

***Xarici KİV nümayəndələri və hərbi attaşelər erməni silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində həlak olan mülki şəxslər - 1967-ci il təvəllüdlü Sahibə Quliyeva və onun nəvəsi 2 yaşlı Zəhra Quliyevanın qəbrini ziyarət ediblər.***



SİA-nın Qarabağ bürosunun verdiyi məlumata görə, kənd sakinləri beynəlxalq təşkilatlardan haqq-ədalətin təmin olunmasını, xarici KİV nümayəndələrindən isə erməni silahlı bölmələri tərəfindən dinc insanların öldürülməsi faktını dünya ictimaiyyətinə çatdırılmasını istəyiblər. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin ardıcıl və davamlı şəkildə ağır silahlardan açdığı atəş nəticəsində 2 yaşlı uşağın qətlə yetirilməsi Ermənistan hökumətinin Xocalı faciəsində törətdiyi amansız qətliamın davamı və eyni qaniçən zehniyyətin növbəti məhsuludur. 2016-cı il aprel ayının əvvəlində Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdəki mövqelərindən qoşunların təmas xəttinə yaxın ərazilərdə sıx yaşayan mülki əhalini ağır silahlardan hədəfə almış, nəticə olaraq Azərbaycanın 34 yaşayış məntəqəsi və kəndi artilleriya atəşinə məruz qalmışdır. Törədilən vandalizm aktı nəticəsində aralarında uşaqlar da olmaqla, 6 nəfər həlak olmuş və 33 nəfər ağır yaralanmışdır. Eyni zamanda məktəblər, xəstəxanalar, təsərrüfat obyektləri ağır artilleriya aramsız hücumlarına məruz qalmış, ciddi zərər görmüşdür. Qeyd edək ki, Alxanlı kəndinə səfərdə "TRT", "İhlas Haber Ajansı", "MİR" Televiziyası, "Associated Press", "RİA Novosti", "Amerikanın Səsi", "İnterfax", "BBC" və digər xarici KİV nümayəndələri, habelə, 12 dövlətin 15 hərbi attaşesi və nümayəndəsi iştirak edir. Səfər edənlər arasında ABŞ, Rusiya, Pakistan, Çin, Koreya, Türkiyə, Qazaxıstan, Çexiya, Ukrayna, Gürcüstan, Belarus hərbi nümayəndələri və Almaniyanın Azərbaycandakı səfirliyinin diplomatı da var. Səfər Azərbaycan Respublikası Xarici işlər Nazirliyi, Müdafiə Nazirliyi, Baş Prokurorluq və Füzuli Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunub.




# Ermənistan ordusunun körpə Zəhra Quliyevanı öldürməsi dünya mediasının diqqət mərkəzindədir

## Nüfuzlu KİV-lər bu məsələ ilə bağlı xəbərləri AZƏRTAC-ın rəsmi məlumatları əsasında yayırlar

***Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törədilən növbəti qanlı cinayət barədə AZƏRTAC-ın rəsmi mənbələrə istinadən yaydığı məlumatlar dünya mediasının diqqət mərkəzindədir.***

Azərbaycan Xarici İşlər və Müdafiə nazirliklərinin, Baş Prokurorluğun Ermənistan ordusunun növbəti cinayətkar əməli barədə rəsmi bəyanatlarını AZƏRTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Beynəlxalq İslam Xəbərlər Agentliyinin (İİNA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) üzvü olan, həmçinin tərəfdaşlıq etdiyi informasiya agentlikləri vasitəsilə dünya ictimaiyyətinə çatdırıb.

Dünyanın nüfuzlu informasiya mənbələri olan "Reuters", BBC, France Press informasiya agentlikləri, "Nyu-York Times", "Le Monde" qəzetləri Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqəsini atəşə tutması nəticəsində uşaq və qadının öldürülməsi faktını həmin rəsmi məlumatlar əsasında işıqlandırıblar. BBC-nin "Dağlıq Qarabağda atəş nəticəsində azərbaycanlı uşaq öldürülüb" başlıqlı məlumatında bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Alxanlı kəndini atəşə tutması zamanı körpə uşaq və onun nənəsi həlak olublar. "Zorakılıq hadisəsi çərşənbə axşamı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin yaxınlığında, Füzuli rayonunun Alxanlı kəndində baş verib. Həlak olan iki yaşlı körpənin adı Zəhra Quliyevadır", - deyə BBC yazır.

Azərbaycanlı nənə və nəvənin öldürülməsi, bir qadının isə yaralanması barədə məlumat verən Reuters qeyd edir ki, bu qanlı hadisəni atəşkəsi pozan Ermənistan silahlı qüvvələri törədib. Agentlik diqqəti ona da çəkir ki, atəşkəsin pozulması Cənubi Qafqaz regionunda ən böyük münaqişə ilə bağlı təhlükəli vəziyyət yaradır.

İki yaşlı Zəhranın qətlə yetirilməsi barədə ABŞ-ın "Nyu-York Times" qəzeti də məlumat dərc edib, region üçün təhlükəli olan Dağlıq Qarabağ münaqişəsinin ciddi narahatlıq doğurduğunu vurğulayıb.

İranın İRNA, Livanın NNA xəbər agentlikləri AZƏRTAC-ın məlumatlarına istinad edərək bu barədə xəbərlər yayıblar. NNA agentliyinin "Erməni vandalizmi: işğalçılar Azərbaycanın iki mülki vətəndaşını öldürüb" başlıqlı yazısında qeyd edilir ki, Azərbaycan ilə Ermənistan arasında 1994-cü ildə atəşkəs rejiminin əldə olunmasına baxmayaraq, azərbaycanlı mülki əhali, eləcə də uşaqlar hələ də erməni vandalizminin qurbanı olur.

NNA yazır: "İyulun 4-də saat 20:40 radələrində Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisini və mülki obyektləri qəsdən 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutublar. Təcavüz nəticəsində kəndin iki sakini həlak olub, bir nəfər yaralanıb. Azərbaycan tərəfi artıq beynəlxalq qurumları Ermənistanın son təxribatı barədə məlumatlandırıb".

Füzuli rayonunun Alxanlı kəndinin erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması, iki nəfərin həlak olması və bir nəfərin yaralanması ilə bağlı dünya mediasında ingilis, rus, ispan, fars, ərəb, fransız dillərində 80-dən çox informasiya yayılıb, Azərbaycanın hadisə ilə əlaqədar mövqeyi təqdim edilib.

# "Azərbaycana ən mükəmməl səyahət paytaxt Bakıdan keçir"


GSR.fm

***Dünyada ən gəlirli sahələrdən birinə çevrilən turizmə dövlət tərəfindən ayrılan diqqət, Azərbaycanın turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, bu sahənin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətində aparılan məqsədyönlü işlər, müsbət dəyişikliklərin müşahidə olunması, tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyini göstərir.***

Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq edilən regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları əsasında turizm sahəsi üzrə bəndlərinin tələbləri çərçivəsində sahibkarlığın inkişafı üçün kreditlər ayrılmış, turizm obyektlərinin inşasının dəstəklənməsi, bir sıra hüquqi sənədlərin hazırlanması sahəsində işlər görülüb. Ölkəmizdə beşulduzlu təsnifat sistemi fəaliyyətdədir və təsnifatda çox gözəl kriteriyalar öz əksini tapıb. Bu uğurlar dünya ölkələrinin turistlərinin və mütəxəssislərinin diqqətindən kənarda deyildi. Avropa ilə Asiya arasında yerləşən və qədim adət-ənənələri özündə birləşdirən Azərbaycan bu gün sürətli inkişafı ilə dünyanın nəzərini üzərində cəmləşdirib. Yeni tikilmiş möhtəşəm otellər, müasir incəsənətin rəmzi sayılan "Alov qülləəri" kompleksi, gözqamaşdıran göydələnlər ölkəmizə xüsusi gözəllik verir. Qobustandakı qədim "Piribaba" ziyarətgahı, Şamaxıdakı "Yeddikümbəz" abidəsi, İsmayıllının meşələri, görməli yerləri, Qəbələnin "Yeddi gözəl" şəlalələri, Nohur gölü və ətrafdakı gözəl təbiət bu diyarın hər qarışında ecazkarlığın olmasına dəlalət edir.

İtaliyanın "Siviaggia" səyahət portalında dərc olunan "Bu il Azərbaycana səyahət etmək üçün 10 səbəb" adlı məqalə də, məzh bu qeyri-adi gözəlliyin təsirdən qələmə alınmışdır. Məqalədə ölkəmizin gözəllikləri ilə tanış olmaq üçün turistlərin ən çox səyahət etdikləri ecazkar məkanlar fotoreportaj şəklində təqdim olunub. Müəllif yazır ki, Azərbaycana ən mükəmməl səyahət paytaxt Bakıdan keçir və şəhərin ecazkar yerləri ilə tanış olmaq üçün, ilk olaraq, onun ən qədim hissəsi olan "İçərişəhər"dən başlamaq lazımdır.

Məqalədə xalqımızın qədimdən yaşayış tərzi, torpağa bağlılıq ənənələri ilə tanış olmaq üçün möhtəşəm dağlarla, keçilməz qayalıqlarla əhatələnən Quba rayonuna getmək məsləhət görülür, xüsusilə, Xınalıq və Laza kəndlərinin turistlər tərəfindən bəyənildiyi qeyd olunur. Həmçinin, şimal-qərb hissəsində yerləşən Şəki və Qax rayonlarının əsrarəngiz təbiətə malik olduğu, Kiş və İlisu kəndlərinin turistlər tərəfindən ən çox sevilən ecazkar məkanlardan olduğu vurğulanır. Bundan əlavə, İsmayıllı rayonunun Lahıc kəndi haqqında məlumat verilir, buranın gözəl təbiəti, abidələri və qədim sənətkarlıq ənənələri ilə məşhur olduğu bildirilir. Təbii ki, Lahıc qəsəbəsinin ən möhtəşəm abidəsi Girdiman çayının sahilindəki 72 otaqlı, 3 mərtəbəli Hacı Paşa evidir. Lahıc Tarix-Mədəniyyət Qoruğu elan olunduqdan sonra Hacı Paşa evi dövlət tərəfindən qorunan abidələrin siyahısına daxil edilmişdir. Lahıca gələn istər yerli olsun, istər də xarici turistlər olsun, bu qədim abidəyə baxmamış buranı tərk etmirlər.

Belə bir tarixi, mədəniyyəti özündə yaşadan Azərbaycan haqqında yazdığı məqalədə müəllif Naxçıvan şəhəri haqqında da danışır, adının "Nuhun şəhəri" mənasını verdiyi bu qədim diyarın, əfsanəyə görə Nuhun gəmisinin tapıldığı məkan olduğu bildirilir.

Müəllif qələmə aldığı məqalədə Azərbaycanın qədimdən zəngin xalçaçılıq mədəniyyətinə malik olduğunu vurğulayır, ölkəmizdə hər evdə fərqli üslublarda toxunmuş xalça və xalıları görməyin mümkünlüyünü bildirir, həmçinin, müxtəlif əsrlərə məxsus xalça və digər tətbiqi incəsənət əsərlərindən nümunələrin saxlanıldığı Xalça Muzeyi barədə də məlumat verir. Göründüyü kimi, Azərbaycanın gözəlliyi xarici vətəndaşların diqqətindən kənarda qalmır. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İtaliya Senatının ümumi iclasında Ermənistanın vəhşiliklərindən danışılıb

***"İtaliya İrəli" (Forza İtalia) partiyasından olan italiyalı senator, İtaliya Senatının uşaqlar və yeniyetmələr daimi komissiyasının üzvü Maria Rizzotti Senatın ümumi iclasında çıxış edərək Ermənistanın dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi son cinayətlərdən danışıb və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyib.***

Senator çıxışını bu fikirlərlə başlayıb: "2017-ci il iyulun 4-də saat 20:40-da beşəriyyətin gündəlik çətinliklərə üzləşdiyi bir anda Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndi minaatanlardan və dəzgahlı qumbaraatanlarda atəşə tutulub, iki nəfərin həyatına əbədi son qoyulub. Yalnız sülh və firavanlıq axtarışında olan bir əhaliyə qarşı yenidən terror törədilib. Ermənistan silahlı qüvvələri ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərinə və substantiv və ciddi danışıqlar yolu ilə status-kvonun dəyişdirilməsinə çağırışlar etməsinə məhəl qoymayaraq yaşlı qadını və onun iki yaşlı nəvəsini öldürüblər".

Ermənistanın cəbhə xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, xüsusilə qadın, uşaq və qocaların olduğu mülki əhaliyə qarşı qəsdən, hədəflənən və sistematik xarakter daşıyan hücumlar etdiyini vurğulayan senator M.Rizzotti bildirib ki, mülki azərbaycanlı əhaliyə və mülki obyektlərə qarşı törədilən, terror hücumlarından da daha betər olan bu kimi birbaşa və qəsdən törədilmiş hücumlar beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyasının və ona 1 saylı Əlavənin, həmçinin uşaqların hüquqlarına və insan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

İtaliyalı senator əlavə edib ki, Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmasını təmin etməyi tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də daxil olmaqla bir çox beynəlxalq sənədlər mövcuddur, lakin bu sənədlərin heç birinə Ermənistan tərəfindən məhəl qoyulmur və rəsmi İrəvanın məqsədi cəbhə xəttində törədilən dünənki hadisə kimi sistematik təxribat və sabotajlar vasitəsi ilə status-kvonun saxlanılmasına nail olmaqdır.

Senator M.Rizzotti, habelə çıxışında qeyd edib ki, münaqişənin həllinə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması məsələsindən ayrı baxıla bilməz və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu münaqişənin həlli üçün ən böyük maneədir.

O deyib ki, Ermənistanın 2016-cı ilin aprel hadisələrindən dərs çıxarmalı, status-kvonun dəyişdirilməsini qəbul etməli, beynəlxalq ictimaiyyəti aldatmağı və danışıqlardan yayınmağı dayandırmalıdır. Ermənistanın uzunmüddətli sülhə nail olmaq üçün substantiv və hərtərəfli danışıqlar aparmaq məqsədilə konstruktiv mövqedən çıxış etməli olduğunu vurğulayan senator M.Rizzotti çıxışını bu fikirlərlə yekunlaşdırıb: "Bu zorakılığa son qoyulmalıdır. Hələ nə qədər qan axıdılmalıdır ki, bu qırğına son qoyulsun? İtaliya hökuməti növbəti ildən ATƏT-ə sədrlik edəcəyini nəzərə alaraq bu dəhşətli münaqişənin qısa zaman ərzində həlli istiqamətində səylərini əsirgəməməlidir".

## Ceyms Tomson: "ABŞ hökuməti Alxanlıda qətlə yetirilən 2 yaşlı Zəhranın və nənəsinin yaxınlarının kədərini paylaşır"



İki yaşlı Zəhranın, onun nənəsinin qətlə yetirilməsi və digər kənd sakininin yaralanması çox təəssüfedici haldır və ABŞ hökuməti bu ailələrin kədərini paylaşır.

AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın ölkəmizdəki səfirliyinin hərbi attaşesi Ceyms Tomson deyib.

ABŞ rəsmisi regiona sülhü gətirmək üçün münaqişənin sülh yolu ilə həllinin ən ideal seçim olduğunu bildirib: "Mən Azərbaycan hökumətinə təşəkkür etmək istəyirəm ki, bizim Alxanlıya səfərimizi təşkil etdi. Biz burada yaranmış vəziyyətlə tanış olduq".

Qeyd edək ki, Azərbaycanda akkreditasiya olunmuş xarici KİV nümayəndələri və hərbi attaşelər iyulun 6-da Füzuli rayonunun Alxanlı kəndinə səfər ediblər. Onlar iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin və mülki obyektlərinin hədəflənmiş şəkildə atəşə tutması nəticəsində həlak olmuş Allahverdiyeva (Quliyeva) Sahibə və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhranın qətlə yetirildikləri hadisə yeri ilə tanış olublar. Həmçinin yaralı Quliyeva Səlminaza baş çəkiblər. Səfər Azərbaycan Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Baş Prokurorluğu və Füzuli Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunub.

## Misir parlamentinin deputatı Ermənistanın dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayəti kəskin pisləyib



Misir parlamentinin deputatı, xarici əlaqələr komissiyasının üzvü, professor Amna Məhəmməd Nusseir Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisini atəşə tutması nəticəsində Sahibə Quliyevanın və nəvəsi Zəhra Quliyevanın həlak olmaları ilə bağlı AZƏRTAC-a müsahibəsində insanlığa zidd olan bu hadisəni kəskin şəkildə pisləyib.

Deputat deyib ki, bu ağlasığmaz və dəhşətli hadisə insanlığa qarşı törədilən cinayətdir. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən bu cinayət sərt şəkildə qınanmalıdır, bu vəhşiliyə dərhal mənəvi və hüquqi qiymət verilməlidir. Azərbaycanın ədalətli və sülhsevər mövqeyinə dəstək verilməlidir, bu cür təxribatlara son qoyulmalıdır.

Misirli deputat, həmçinin mülki vətəndaşların, xüsusilə də uşaqların amansızcasına Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilməsinin vandalizm olduğunu və beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulduğunu vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Amna Məhəmməd Nusseir Azərbaycanın suveren ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsinin və etnik təmizləməyə məruz qoyulmasının müasir tarixin ən qara səhifələrindən biri kimi səciyyələndirib. O, bu ədalətsizliyin yüz minlərlə azərbaycanlı məcburi köçkünün məşəqqətinə səbəb olmaqda davam etdiyini ürəkağrısı ilə vurğulayıb.

***Asya Hacızadə***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Qahirə***

# Ümummilli Lider Heydər Əliyev böyük bir yolun başlanğıcını qoyub

*YAP Şəmkir rayon təşkilatının təşkilatçılığı ilə növbəti tədbir keçirilib*

**Dünən YAP Şəmkir rayon təşkilatının təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsinin 48-ci ildönümü" münasibətilə Sabirkənd ərazi ilk partiya təşkilatında tədbir keçirildi.**



Tədbiri giriş sözü ilə açan Şəmkir rayon icra hakimiyyəti başçısının müavini, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 48-ci ildönümünü qeyd edirik: "Ulu Öndərin 1969-cu il 14 iyulda Azərbaycanda rəhbərliyə gəlməsi Azərbaycanın ən yeni tarixinin dönüş mərhələsinin başlanğıcı idi. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin siyasi rəhbərliyə gəlişinin əhəmiyyəti, Azərbaycanın sonrakı mərhələdə əldə etdiyi uğurlardan danışmazdan öncə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinə qədərki vəziyyətə nəzər salmaq lazımdır".



Təşkilat sədri çıxışında bildirdi ki, Ümummilli Lider Heydər Əliyev böyük bir yolun başlanğıcını qoyubdur: "1993-1998, 1998-2003 -cü illərdə Azərbaycanın rəhbəri olduğu dövrdə başladığı müstəqil Azərbaycanın quruculuğu işlərini davamlı olaraq həyata keçirmişdir və müstəqil dövlətin qurucusu və yaradıcısı kimi Azərbaycan tarixində Ümummilli Lider səviyyəsində özünə yer tutmuşdur. Ulu Öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti 1969-cu ildə başladığı siyasətin məntiqi davamıdır. Bu yol güclü, qüdrətli, zəngin lider yolu deməkdir. Bu yol bütün dünya azərbaycanlılarının azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsi deməkdir. 48 il bundan əvvəl başlanan yol bundan sonra Azərbaycan üçün aparıcı yol olacaq və Azərbaycan xalqı daim Ulu Öndər Heydər Əliyev yolu ilə gedəcəkdir".

Tədbirdə çıxış edən Sabirkənd ərazi ilk partiya təşkilatının sədri İdris Əbdürrəhmanov, Sabirkənd kənd Bələdiyyəsinin sədri Etibar Əliyev və partiya fəalı Müqabil Yolçuyev qeyd etdilər ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin fundamental prinsipini yaradıbdır: "Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev ölkəmizin sürətli inkişafı üçün çox ciddi addımlar atır.

Prezident Azərbaycanın iqtisadi inkişaf modelini daha yüksək səviyyəyə qaldırmışdır. Bu gün dünyanı bürüyən qlobal iqtisadi böhran şəraitində Azərbaycanın əldə etdiyi uğur və inkişaf göz önündədir. Azərbaycanın inkişafının əsasında dayanan fundamental prinsiplər sırasında varisliyin daha yüksək səviyyədə qorunduğunu və inkişaf etdiyini Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətdə qabarıq şəkildə görürük".

**RƏFİQƏ**

# Türkiyə KİV-ləri: İşğalçı Ermənistan uşaq qatilidir




Türkiyənin aparıcı kütləvi informasiya vasitələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törətdikləri ağır cinayətlərlə bağlı geniş məlumatlar yaymaqda davam edir. Yaşlı qadın Sahibə Allahverdiyeva (Quliyeva) və onun 2 yaşlı qız nəvəsi Zəhra Quliyevanın həlak olması barədə informasiyalar sosial şəbəkədə də sürətlə paylaşılır.

Anadolu Agentliyi, "Sabah" və "Hürriyyət" qəzetlərində, televiziya kanallarında və digər xəbər portallarında dinc sakinlərin amansızlıqla qətlə yetirilməsi, mülki obyektlərin dağıdılmasına dair informasiyaların əksəriyyəti "İşğalçı Ermənistan uşaq qatilidir" ifadələri ilə təqdim olunub.

# Dövlət sərhədlərimiz etibarlı şəkildə mühafizə olunur

*İran İslam Respublikası ilə dövlət sərhədində gizlədilmiş 5550 qutu müxtəlif markalı siqaretlər aşkar olunaraq götürülüb*







***"Dövlət Sərhəd Xidməti Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi, mütəşəkkil cinayətkar qrupların dövlət sərhədindən qaçaqmalçılığının qarşısının alınması istiqamətində fəaliyyətini uğurla davam etdirir".***

***"SƏS"ə daxil olan məlumata görə, bu barədə Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən bildirilib. Məlumatda qeyd edilir ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi üzrə görülən tədbirlər nəticəsində növbəti dəfə külli miqdarda qaçaqmalın ölkəmizə gətirilməsinin qarşısı alınıb.***

DSX-nin Mətbuat Mərkəzindən bildirilir ki, 04.07.2017-ci il tarixdə saat 01:00 radələrində Yardımlı rayonunun Abbaslı kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən dövlət sərhədi istiqamətində hərəkət edən 3 nəfər aşkar edilib. "Sərhəd naryadının təlimata uyğun və çevik hərəkətləri nəticəsində "dayan" çağırışına və xəbərdarlıq atəşinə məhəl qoymayaraq, hadisə yerində qaçmağa cəhd göstərən Yardımlı rayon sakinləri 1994-cü il təvəllüdlü İmanov Elnur Rəhman oğlu və 1995-ci il təvəllüdlü Əsmənov Sarvan Arif oğlu saxlanılıb"- deyə bildirilən məlumatda qeyd olunur ki, sərhəd pozucularından bir nəfəri havanın qaranlıq olmasından və ərazinin mürəkkəb relyef xüsusiyyətlərindən istifadə edərək, geriyə qaçmağa müəffəq olub: "Əraziyə baxış keçirilərkən Azərbaycan Respublikasına gətirilməsi üçün İran İslam Respublikası ilə dövlət sərhədində gizlədilmiş 5550 qutu müxtəlif markalı siqaretlər aşkar olunaraq götürülüb".

DSX-nin Mətbuat Mərkəzinin məlumatında sözügedən fakt üzrə əməliyyat-istintaq tədbirlərinin davam etdirildiyi bildirilir.

**RÖVŞƏN**

# İtaliya parlamentinin üzvləri Ermənistanın təxribatını pisləyən bəyanatlar veriblər

***İtaliya parlamentinin Deputatlar Palatasının üzvləri Kristina Bargero və Xalid Çauki, habelə Senatın üzvü Vito Petroçelli Ermənistan silahlı qüvvələrinin iyulun 4-də təxribatı nəticəsində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş cinayətləri pisləyən, eləcə də Ermənistanın işğalçı siyasətini qınayan bəyanatlar veriblər.***




İqtidar Demokratik Partiyadan olan deputat Kristina Bargero bildirib ki, bu gün daha bir körpənin həyatından qəddarlıq nəticəsində məhrum olması xəbərini almaq və hələ də aktiv fazada qalmaqda davam edən Ermənistan-Azərbaycan münaqişəsi barədə az yazan bir çox mətbuat orqanlarının laqeydliyini görmək çox ağrılıdır. "Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasını tələb edən çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan və Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edən Ermənistanın silahlı qüvvələri tərəfindən iki yaşlı körpə qətlə yetirilib",- deyə italiyalı deputat vurğulayıb.

Deputat K.Bargero Ermənistanın ən tez zamanda öz qoşunlarını işğal olunmuş ərazilərdən çıxaracağına və beynəlxalq ictimaiyyəti aldatmağa son qoyacağına ümid etdiyini bildirib. "İtaliya hökuməti isə gələn il ATƏT-ə sədrliyi dövründə konstruktiv danışıqlar vasitəsilə uzunmüddətli sülhün bərqərar olunması yolunda fəaliyyət göstərməlidir",- deyə Kristina Bargero fikirlərini tamamlayıb.

Hakim Demokratik partiyadan olan digər deputat, xarici əlaqələr daimi komissiyasının üzvü Xalid Çauki isə qeyd edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində bir qadının və onun nəvəsinin öldürülməsi, digər bir mülki şəxsin yaralanması və mülki obyektlərə ziyan vurulması ilə nəticələnən hücumla bağlı yeni xəbərlər dərin narahatlıq doğurur və Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş münaqişə olmadığını göstərir. O deyib: "Biz Ermənistan tərəfindən törədilən təcavüz aktını qəti və kəskin şəkildə qınayırıq, ziyan çəkən mülki əhali ilə tam həmrəyliyimizi ifadə edirik. Ümid edirik ki, ATƏT-in Minsk Qrupunun səyləri ilə Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz doğma evlərinə qayıtması zərurətindən başlamaqla, sülh danışıqlarını yenidən bərpa etmək mümkün olacaq".

İtaliya Senatında 5 ulduz hərəkatı partiyasının təmsilçisi, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü Vito Petroçelli isə bildirib ki, beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmağa başlamalıdır. İtalyan senator deyib ki, 30 ilə yaxın davam edən bu müharibə ilə bağlı həm BMT, həm də ATƏT öz rəylərini dəfələrlə bildiriblər və dünən də bir qadın və bir körpənin həyatlarını itirməsinə münasibətdə susqunluq hökm sürür. Deputatlar Kristina Bargero və Xalid Çaukinin bəyanatları mənsub olduqları Demokratik partiyanın rəsmi internet səhifəsində və İtaliya milli xəbər agentliyi-ANSA tərəfindən yayılıb, senator Vito Petroçellinin bəyanatı isə ANSA agentliyində yerləşdirilib.

# Azərbaycan diaspor təşkilatları ermənilərin növbəti təxribatlarına qarşı etirazlarını bildirirlər

***Məlum olduğu kimi, iyulun 4-də axşam saatlarında Ermənistan silahlı qüvvələri Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və ağır artilleriya qurğularından atəşə tutub. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəfə alan hərəkətləri nəticəsində kənd sakini, 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra Elnur qızının həlak olması və digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızının yaralanması, mülki obyektlərə yetirilən zərər Azərbaycan diaspora təşkilatlarında da kəskin narahatçılığa səbəb olub.***





Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına istinadən bu məsələ ilə bağlı, artıq Avropa Azərbaycanlıları Konqresi tərəfindən Avropa institutlarına, beynəlxalq təşkilatlara, Ermənistanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə etiraz məktubları ünvanlanıb və bəyanatlar göndərilib. Bu qanlı cinayətin qəti şəkildə pislәndiyi məktub və bəyanatlarda Avropa azərbaycanlılarının baş verən hadisələrdən dərin narahatlıq hissi keçirdikləri ifadə olunub, belə halların beynəlxalq hüquq normalarına tam zidd olduğu vurğulanıb.

Paris Azərbaycan Evinin Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində törədilmiş hərbi təxribatla əlaqədar yaydığı bəyanatda Fransada yaşayan azərbaycanlılar adından iyulun 4-ü axşam saatlarında Ermənistan ordusunun Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törətdikləri qəti şəkildə pislənilib, həlak olanların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verilib. Bəyanatda, həmçinin, Ermənistan dövlətinin ötən əsrin sonlarına doğru Azərbaycan xalqına qarşı törətdiyi təcavüz aktları qeyd edilib və bildirilib ki, 1 milyondan çox Azərbaycan əhalisi öz ölkəsində məcburi köçkün kimi yaşayır. “Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən qınanılsa da, Ermənistan dövləti beynəlxalq təşkilatların çağırış və qərarlarına laqeyd yanaşır. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycan ərazilərinini dərhal azad edilməsini və məcburi köçkünlərin öz ölkələrinə qaytarılmasını tələb etsə də, bu qətnamələr hələ də yerinə yetirilməmiş qalır”.

Paris Azərbaycan Evi Fransadakı azərbaycanlılar adından ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanı və bütün dünya icitmaiyyətini Azərbaycanın ərazi bötövlüyünün bərpası üçün Ermənistana təzyiq göstərməyə çağırıb. Polşada yaşayan Azərbaycan gəncləri və diasporçularımız da məsələyə biganə qalmayaraq, Ermənistan səfirliyi qarşısında aksiya keçirməyə hazırlaşırlar. Dünya ölkələrində yaşayan azərbaycanlılar etiraz aksiyalarında beynəlxalq ictimaiyyətdən işğalçı ölkənin cinayətkar əməllərinə lazımi qiymət verilməsini tələb edən şüarlar səsləndirəcəklər. Aksiyanın keçirilməsi ilə bağlı artıq yerli orqanlara müraciət göndərilib.

Polşadakı Azərbaycan Gənclər Birliyi həmvətənimizlə birlikdə iyulun 7-də saat 16:00-da Ermənistan səfirliyinin qarşısında aksiya keçirəcək. Birliyin təsisçisi Varşavada yaşayan həmvətənlərimizi aksiyaya dəstək verməyə və bu istiqamətdə öz səsini ucaltmağa çağırıb. Həmçinin, bir neçə təşkilatla birlikdə beynəlxalq təşkilatlara etiraz məktubları göndəriləcək. Finlandiya Azərbaycan Assosiasiyası, Azərbaycan Qadınlar Cəmiyyəti, Yeniyetmə Gənclər Təşkilatı və Azər-Türk Gənclər Təşkilatı hadisə ilə bağlı birgə bəyanat yayıb. Bəyanat Finlandiya Parlamentinə, Finlandiya Xarici İşlər Nazirliyinə, İnsan Hüquqları Komitəsinə, BMT, ATƏT, AŞPA, Avropa İnsan Haqları Məhkəməsinə, ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Popova, amerikalı həmsədri Ceyms Uorlikə, fransalı həmsədri Pier Andreuya və Avropa Parlamentinə göndərilib. “Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə yönəlmiş artilleriya zərbələri sübut edir ki, Ermənistan dövləti təcavüzkar siyasəti ilə beynəlxalq hüquq normalarına riayət etməyərək, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin, Uşaqların Hüquqlarına dair və İnsan Hüquqlarının Müdafiəsi və Fundamental Azadlıqlara dair Konvensiyanı ciddi şəkildə pozmaqda davam edir. Biz, dünyanın aparıcı, sivil, sülhpərvər dövlətlərini, BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqını dinc sakinlərin, qocaların, qadınların, körpə uşaqların qətlə yetirilməməsi üçün, nəhayət ki, biganəlikdən əl çəkməyə, təcavüzkar Ermənistanın işğal etdiyi torpaqlardan silahlı qüvvələrini geri çəkməyə məcbur edilməsi üçün qəti addımlar atmağa çağırırıq. Regionda sülhün, sabitliyin, əmin-amanlığın təmin olunmasının yeganə yolu status-kvonun dəyişdirilməsi, Azərbaycan torpaqlarının işğaldan azad olunmasıdır” - deyə bəyanatda bildirilir.

Türkiyədə fəaliyyət göstərən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası, İstanbul Türkiyə Azərbaycan Kültür və Dayanışma Dərnəyi (İS-TAD), Eskişəhər Azərbaycanlılar Dərnəyi Misir Ərəb Respublikasında fəaliyyət göstərən “Vətənpərvər” - Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyi, Yaponiyada fəaliyyət göstərən Azərbaycan - Yaponiya Dostluq Mərkəzi, Şimali Kipr Türk Respublikasında fəaliyyət göstərən Azərbaycan-Kipr Dostluq Cəmiyyəti Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı qüvvələrinin növbəti təxribatını pisləyən bəyanat yayıblar.

Dünya ictimaiyyətinin diqqətinə çatdırılıb ki, bu faciə Azərbaycan torpaqlarının işğal altında saxlanılmasının region üçün nə qədər ciddi təhlükə olduğunu, eyni zamanda, Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha ortaya qoyur. Dünya ictimaiyyəti atəşkəs dövründə baş verən təxribatların, hücumların və mülkü şəxslərin qətlə yetirilməsinə lazımi reaksiya versinlər, bütün bu ədalətsizliklərə seyrçi qalmasınlar.

Həmçinin, 1992-ci ildə baş verən Xocalı Soyqırımının birbaşa icraçısı olan Ermənistanın indiki prezidenti Sarkisyanın Azərbaycan xalqına dünyanın gözləri qarşısında eyni soyqırımı siyasətini davam etdirdiyi diqqətə çatdırılır. Bu hadisənin baş verməsi bir daha Ermənistanın bölgədə sabitlik və əmin-amanlığa ciddi təhlükə və münaqişənin dinc yolla nizamlanması proseslərinə manеə olduğunu göstərir.

***ZÜMRÜD***

## ABŞ Azərbaycanlıları Şəbəkəsi iki dinc Azərbaycan sakininin Ermənistan silahlı qüvvələri tərəfindən öldürülməsi ilə əlaqədar kampaniya aparır




ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin onun işğal edilmiş ərazilərində yerləşən erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması və bunun nəticəsində iki dinc sakinin öldürülməsi barədə Amerika ictimaiyyətinin məlumatlandırılması üzrə kampaniya aparır.

ABŞ Administrasiyasının üzvlərinə, konqresmenlərə və Amerika KİV-lərinə ünvanlanmış müraciətdə qeyd edilir ki, kənd qumbaraatanlardan, 82 və 120 millimetrlik minataanlardan atəşə tutulub. Nəticədə kənd sakinləri - 50 yaşlı Sahibə Quliyeva və onun 2 yaşlı nəvəsi Zəhra Quliyeva qətlə yetirilib. Ağır yaralanmış daha bir qadın hərbi qospitala çatdırılıb.

Ermənistanın Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə hücumlarının davam etməsi beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu ilin Cenevrə Konvensiyasının ciddi şəkildə pozulması deməkdir. ABŞ Azərbaycanlıları Şəbəkəsi vurğulayır ki, erməni hərbçilərinin mülki şəxslərə hücumları yeni bir şey deyildir. Bir vaxtlar səhra komandiri olan Ermənistanın indiki Prezidenti Serj Sarkisyan 1992-ci ilin fevralında Xocalı qırğınında - Azərbaycan xalqının 613 dinc sakininin, o cümlədən 106 qadının və 63 uşağın erməni hərbi hissələri tərəfindən qabaqcadan düşünülmüş şəkildə məhv edilməsində bilavasitə iştirak edib.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana təcavüzünü pisləyən və işğalçı qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasına çağıran 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. Müraciətin sonunda deyilir ki, ABŞ Administrasiyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməli və beynəlxalq hüququn aliliyinin bərpa olunmasında ABŞ-ın müttəfiqini dəstəkləməlidir.

## Haaqada etiraz aksiyası keçiriləcək



Niderland Krallığında yaşayan azərbaycanlılar Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisini atəşə tutması, Sahibə Quliyevanın və iki yaşlı nəvəsi Zəhra Quliyevanın həlak olmasına etiraz əlaməti olaraq, Ermənistanın Haaqa şəhərində yerləşən səfirliyi qarşısında etiraz aksiyası keçirəcək. SİA-nın verdiyi məlumata görə, aksiyada “Ermənistan, təcavüzə son qoy!”, “Uşaq qatilləri cəzasız qalmasın”, “Azərbaycan ərazilərini işğalçı ordu tərk etməlidir” kimi şüarlar səsləndiriləcək. Ermənistanın işğalçılıq və soyqırımı siyasəti, təcavüzkar ölkənin hərbçilərinin mülki şəxsləri atəşə tutması barədə məlumat dünya birliyinin diqqətinə çatdırılacaq. Niderland Avropalı Azərbaycanlıları Cəmiyyətinin sədri Emil Əliyev digər ölkələrdə yaşayan azərbaycanlıları da aksiyaya qoşulmağa dəvət edib. Qeyd edək ki, artıq aksiyanın keçirilməsi ilə əlaqədar, icazənin alınması üçün müvafiq orqanlara müraciət olunub.

# Qatillərin törəyər, amma qəhrəmanların doğulmaz









***Erməni... dini, dili, tarixi, kökü, mənəviyyatı olmayan kölə bir "xalq"!!! Əgər belə deyilsə, tarixindən, kimliyindən, keçdiyin "şanlı-şərəfli yol"undan danış, "torpağı" uğrunda şəhid olan "qəhrəmanlar"ını dünyaya tanıt. Onda sənin kimliyini və yer üzündə yaşamaq haqqını qəbul etmək olar. Özgələrin hakimiyyəti altında yaşayan erməni Azərbaycanlıların humanizmi, böyüklüyü qarşısında hiylə və qəddarlıqla çıxış edərək, tarixinə təcavüz, işğal sözlərini hopduraraq, gələcək üçün sanballı ola biləcək salnamələri yarada bilmədi. Satqın erməni tarixmi yazar? Tarixçi Qaraqaşyan yazırdı ki, "ermənilərin keçmişi haqqında tarix və ya salnamə sayıla biləcək məlumatlar yoxdur".***

"Qaraçı tayfası kimi el-el, oba-oba dolaşaraq Azərbaycan torpaqlarında yaşamaq və yurd qazanmaq haqqını əldə edib, dünyanın ən sonuncu tayfasına çevrilən erməninin bir millət kimi yer üzündən silmədiyi üçün gələcəkdə onu alqışlayacaq, ya da lənətləyəcəkdirlər", - deyə fateh-hökmdar Əmir Teymur yazırdı. Başqa dinə, dövlətə qulluq edən xalq təbiidir ki, quldur, kələkbaz və hiyləgər omalıdır. Hərdən səni qınamıram, erməni, kökü olmayandan nəsə ummaqmı olar?! Azərbaycan ərazisində yaşayıb və vətənsiz olduğuna görə, hansı əraziyə köçürülübsənsə, yaxud da yaşayıbsansa, həmin məkanı tez bir zamanda mənimsəməyə cəhd edərək, erməniləşdirmə siyasətini həyata keçiribsən. Bu, tarixi mənbələri araşdırarkən, bir daha sübut olunur. Ermənilər çağdaş dünyamızda təkcə Azərbaycan məkanında deyil, dünya miqyasında məxsusi dəyərlərini qabartdıqlarından, belə "yaxşı" imici formalaşdırıblar. Şərq və Qərb alimləri onların milli kimliyi, keyfiyyətləri ilə bağlı araşdırmalarında mübaliğəsi olmayan fikirlərini qələmə alarkən, bütün parametrlərdən ölçülərini parlaq və işıqlı şəkildə təqdim edirlər. Bunu tarix boyu səyahətlərdə olan, böyük fəlsəfi fikirləri ilə dünyanı heyran qoyanlar, erməni, sənə kimliyini hər dəfə başa salıblar.

Torpaq iddiası, qanlı münaqişə, toqquşmalar, təcavüzkarlığı təkrar-təkrar dünyanın gözü qarşısında olub. Qocaya, cavana, uşağa belə qıymadan insanlıq əleyhinə çıxan erməni insan ölümünə gülür və bundan həzz alırsa, məncə, dünya leksionunda elə bir söz yoxdur ki, onun ünvanına söylənilsin. Erməni tarixçiləri erməni libasını çıxarıb, etirafları ilə özlərini daha yaxşı təhlil də ediblər. Erməni tarixçisi Lalayan ötən əsrin əvvəllərində törədilən məlum hadisə ilə bağlı belə yazırdı: "Daşnak dəstələri qadınların və uşaqların, qocaların və xəstələrin qarşısında maksimum cəsarət nümayiş etdirdilər. Onlar öz qurbanlarını eybəcər hala salırdılar". Bəli, qadınların və uşaqların, qocaların və xəstələrin qarşısında MAKSİMUM CƏSARƏT! Bu, sənsən soysuz erməni. Xain erməni. Günahını günaha calayan erməni. Etdiklərin bəs deyil, tövbə etmirsən?! Murdar əməllərinin isə ardı-arası kəsilmir. Eyni süjet, eyni ssenari ilə əməllərin təkarlanır.

Dünya xalqları tərəfindən lənətlənmiş olan erməni Xocalı soyqırımını törətdi. İnsanlığa ləkə saldı. Dünya buna dözdü. Erməni "yazıçı" Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabını yazdı. Dünya vərəqlədi, oxudu. "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən, əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq". Erməni hərəkətlərinin vəhşiliyi qarşısında fəxr duydu, bəs dünya insanı necə? Əgər vaxtında törədilənlərə münasibət olsaydı, bu, davam etməzdi. Uşağa qarşı belə biganəlikmi olar? Ermənının yazıçısı da, hərbçisi də, hətta evdar qadını da bir məslək yolçusudur. Əgər belə deyilsə, yazıçı-jurnalist David Xerdiyanın "Xaç uğrunda" kitabına bu cümlələr hardan hopmuşdur: "Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyitinin sinəsinə basıb, addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi və mən beləcə, 1200 meyitin üstündən keçdim". Bu, erməni etirafıdır. Tükürpədici, nifrət oyadan, Azərbaycan qanına susayan erməni etirafı. Köksündə vəhşilik alovlanan faşist ermənisi etirafı. Sən kimsən, yurdsuz-yuvasız, sahibsiz, sənədsiz erməni, elmsiz, kökü qaraçı olan oğru, dilənçi erməni?! Cəsədlərin üzərinə mazut tökərək yandıran və tonqaldan eşidilən ağlamaq və imdad səslərindən həzz alan kiməsə insan söyləmək olarmı? İnsanlığın düşməni! O qədər iyrənc və qorxuncsan ki, adını hallandıranda qəlb dözüm gətirə bilmir, sən elə sənsən, ermənisən, tarix dəyişsə də, zahiri görkəmin dəyişsə də, içindəki nəfs, qorxu, hiylə, yalan, QATİLLİK dəyişməz. Elə səni sən edən də bu "dəyərlərindir."

Bu gün bütün dünya iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini 82, 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutduğunu və təxribat nəticəsində kənd sakinləri Allahverdiyeva Sahibə İdris qızı və onun nəvəsi Quliyeva Zəhra Elnur qızının həlak olduğuna laqeyd qala bilmir. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır və bunun üçün məsuliyyət təcavüzkar ölkənin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirməsi hələ də davam edir. Bu müddət ərzində 32 azərbaycanlı uşaq erməni terrorunun qurbanı olub. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. Bu gün 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. Bu faciəli ölüm dünya ictimaiyyəti tərəfindən lənətlənir.

Azərbaycanın uğurlu, davamlı, dinamik inkişafı onu göstərir ki, ölkəmiz beynəlxalq səviyyədə tanınmış sərhədləri hüdudlarında suverenliyini və ərazi bütövlüyünü tam təmin etmək iqtidarındadır: "Biz suverenliyimizi, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik", - deyən dövlət başçısının söylədiklərindən aydın olur ki, Azərbaycanın bu məsələdə mövqeyi tam aydın və şəffafdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Serj Sarkisyan anadan qatil doğulub

*“Azərbaycan Silahlı Qüvvələri balaca Zəhranın, bütövlükdə şəhidlərimizin qanını yerdə qoymayacaq”*

***Məlum olduğu kimi, iyulun 4-də axşam saatlarında Ermənistan silahlı qüvvələri Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və ağır artilleriya qurğularından atəşə tutub. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəfə alan hərəkətləri nəticəsində kənd sakini 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və onun nəvəsi 2 yaşlı Quliyeva Zəhra Elnur qızı həlak olmuş, digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı isə yaralanmış, mülki obyektlərə zərər yetirilmişdir. Söhbət etdiyimiz müsahiblərimiz 2 yaşlı Zəhranı qətlə yetirməklə Sarkisyanın terrorcu və uşaq qatili olduğunu bir daha nümayiş etdirdiyini bildirdilər.***



Politoloq Elçin Mirzəbəyli:

- Mülki şəxslərin öldürülməsi bir daha Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasətinin bariz bir nümunəsidir. Bu fakt sübuta yetirilir ki, Ermənistanın hərbi cinayətkar rejimi Azərbaycan xalqına qənim kəsilib və onların məqsədi bu regiondan azərbaycanlıları təmizləməkdən ibarətdir. Çünki yalnız soyqırımı törədənlər uşaq qətlinə yol verə və mülki vətəndaşları öldürə bilərlər. Təbii ki, bu ilk hadisə deyil və ermənilərin bütövlükdə bu günə qədər həyata keçirdikləri siyasətin mahiyyətində azərbaycanlılara qarşı nifrət dayanıb. Bu proses 1915-ci ildən başlayan bir prosesdir. Azərbaycan torpaqlarına ermənilərin sahiblənməsi və Azərbaycan torpaqlarında erməni dövlətinin qurulması ilə nəticələnib. Növbəti dəfə də ermənilər Azərbaycan ərazisində erməni dövləti qurmaq niyyəti güdürlər. Şübhəsiz ki, Azərbaycan tərəfi buna qarşı adekvat addım atacaq. Burada hər kəsi narahat edən məqamlardan biri də ATƏT-in Minsk Qrupunun vasitəçilərinin ikiüzlü və riyakar davranışları fonunda Ermənistanın mülki vətəndaşları qətlə yetirmələrinə görə konkret addımlar atmamasıdır. Burada həm ATƏT-in Minsk Qrupuna, həm də, bütövlükdə ayrı-ayrı beynəlxalq təşkilatlara münasibətdə Azərbaycan ictimaiyyəti özünün açıq etirazını çatdırmalı və bütün istiqamətlərdə Ermənistana qarşı mübarizəmizi davam etdirməliyik. Azərbaycan Silahlı Qüvvələri balaca Zəhranın, bütövlükdə şəhidlərimizin qanını yerdə qoymayacaq.

- Atəşkəs müqaviləsinin bağlanmasından sonra erməni tərəfinin bu razılaşmanı pozması halı dəfələrlə baş verib. Azərbaycan Müdafiə Nazirliyi hər gün xəbər yayır ki, atəşkəs rejimi gün ərzində 100 dəfədən çox pozulur. Amma son vaxtlar bu cür təxribatlar daha intensiv və aqressiv xarakter alıb. Məncə, bunun səbəbi 2016-cı ilin ap-



Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli:

rel olaylarıdır. Aprel olayları Azərbaycan Ordusunun gücünü, əzmini, məğlubedilməzliyini, Ermənistan ordusunun isə zəif, bacarıqsız, başqalarının hesabına ayaqda duran bir ordu olduğunu təsdiqlədi. Aprel hadisələri ermənilərin 20 illik “qalib ovqatı”nı məhv etdi, onları rüsvay və rəzil günə saldı. Təbii ki, onlar qisas almaq, əvvəlki ovqatlarını bərpa etmək istəyirlər, amma bu, mümkünsüzdür. Erməni ordusu indi hər hücumuna qarşılıq olaraq 10 qat ağır zərbə alır, hər gün məğlub edilir və sındırılır. Buna görə də aqressivləşir. İndi onlar ordu kimi yox, oğru, quldur, qaçaq dəstəsi kimi davranırlar, gecə xəlvətcə hücum etməyə, qadın və uşaq demədən kimisə öldürməyə çalışırlar ki, təskinlik tapa bilsinlər. Erməni təxribat qrupunun Füzuli rayonuna atdığı mərmilərdən iki nəfərin öldürülməsini də bu qəbildən izah etmək mümkündür. Beynəlxalq təşkilatların mövqeyinə gəlincə, təbii ki, həm təəccüblüdür, həm də başadüşülən. Onların öz missiyalarını yerinə yetirməmələri, Ermənistanın hərəkətlərinə lazımi qiymət verməmələri ilk baxışdan təəccüblüdür. Dünyanın istənilən nöqtəsində baş verən ən xırda hadisələrə operativ reaksiya verən beynəlxalq təşkilatların Azərbaycana çatanda ləng tərpənmələri heyrət doğurmaya bilməz. Amma bu hərəkət həm də başadüşüləndir, ona görə ki, beynəlxalq təşkilatların belə davranışı ilk dəfə baş vermir. Zatən Ermənistanın zaman-zaman aqressiv və özbaşına davranışlarının kökündə, məhz bu amil dayanır. Ermənistan arxayındır ki, qanunsuz və təcavüzkar siyasətinə görə ona heç kim “gözün üstə qaşın var” deməyəcək. Amma bu davranışın da sonu çatıb. Artıq Azərbaycan diplomatları məsələləri yüksək səviyyədə təqdim etməyi və həqiqətləri isbatlamağı bacarırlar. XİN xarici KİV-lərin, diplomatların Alxanlı kəndinə səfərlərini təşkil edib. Onlar həqiqətləri öz gözləri ilə görürlər. Beynəlxalq təşkilatlar qarşısında tələb qoyulur ki, məsələyə münasibət bildirsinlər. Yaxşı haldır ki, artıq Azərbaycan mediası, sosial şəbəkə, internet istifadəçiləri də səfərbər olmağı bacarırlar. Bir milli vahid olaraq problem üzərinə yeriməklə, düşməni məğlub edə biləcəyik.



Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:

- Cari ilin iyul ayının 4-də erməni silahlı birləşmələrinin Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan atəşə tutmaları nəticəsində mülki vətəndaşların öldürülməsi ilk hadisə deyil. Artıq ənənə halını almış bu cür vandalizm halları azğınlaşmış düşmənin terrorçuluq mahiyyətinin göstəricisidir. 21-ci əsrdə mülki əhalinin qətlə yetirilməsi, ən dəhşətlisi isə 2 yaşlı körpənin həyatına son qoyulması bəşəriyyət üçün, beynəlxalq sülhün qorunmasına cavabdeh olan beynəlxalq qurumlar üçün utanc gətirən faktdır. Təsəvvür edin ki, BMT tərəfindən Azərbaycan ərazisi kimi tanınan Füzuli rayonunda uşaq qətlə yetirilir, buna BMT tərəfindən, onun insan hüquqları üzrə Ali Komissarlığı tərəfindən lazımi hüquqi qiymət verilmir. Bu faşizmin müdafiə edilməsi deməkdir. Hesab edirəm ki, cəmiyyətimiz bu məsələdə birlik nümayiş etdirəcək, dövlətin yanında olacaq və işğalçının cəzalandırılması istiqamətində də informasiyaların dünyaya çatdırılmasına nail olacaq.

- Xocalı qətliamını törədib heç bir qınaqla qarşılaşmayan erməni faşizmi, təkcə son bir neçə il ərzində, azyaşlı uşaqlar da daxil olmaqla, onlarla dinc Azərbaycan vətəndaşını qətlə yetirib. Əminik ki, belə bir vandal akt hansısa Avropa ölkəsində baş versəydi, bunu törədənlər ən ağır üsullarla cəzalandırılardı.Bir tərəfdə danışıqlar görüntüsü yaradaraq, özünü sülh istəyən kimi qələmə verib, digər tərəfdə dinc



Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov:

əhalinin yaşayış məntəqələrini ağır silahlarla atəşə tutan, iki yaşlı körpəni qətlə yetirən faşist xislətli erməni vandallarının əməllərinə nədənsə siyasi və hüquqi qiymət verilmir. Avropada sülhü və təhlükəsizliyi qorumaq adı ilə yaranan ATƏT-in, eləcə də, Avropa Şurasının, həmçinin, Qarabağ konfliktini həll etmək missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu ağır faciəyə də seyrçi münasibət bəsləməsi təəccüb və təəssüf doğuran faktdır. Beynəlxalq birliyin bütün bunlara laqeyd yanaşması Azərbaycan xalqının hiddətini son həddə çatdırmışdır. Multikultural dəyərləri, tolerantlıq ənənələri, sülhsevərliyi ilə dünyaya nümunə göstərən bir xalqa qarşı belə münasibətin mövcudluğu, inanırıq ki, bəşəriyyətin gələcəyi ilə bağlı yaxşı nəsə vəd etmir. Dünya unudur ki, tarixən sülhsevər, tolerant dəyərlərə malik olan bu xalq, zaman-zaman bu cür vandalizmlərə qarşı mətanətlə mübarizə apararaq, ona lazımi dərs verməyi də bacarıb. Xalqımız erməni faşizmini yerində oturtmaq üçün bütün imkanlarını səfərbər etmək əzmindədir. O zaman baş verənlərin bütün məsuliyyəti erməni faşizminin və onlara havadarlıq edənlərin üzərinə düşəcək. Arzu edərdik ki, dünya birliyi bu həqiqəti qəbul etsin və nəhayət, hərbi qarşıdurmanın növbəti dəfə qanlı savaş mərhələsinə keçməməsi üçün lazımi qərarlar qəbul etsin.

**GÜLYANƏ**

## İqtisadiyyat Nazirliyi istehlakçılara müraciət edib



İqtisadiyyat Nazirliyi istehlakçılara müraciət edib. İstehlakçı hüquqlarının qorunmasında istehlakçı fəallığı mühüm əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istehlakçılara mal alarkən diqqətli olmağı, onların istehsal və son istifadə tarixlərinə, malın ticarət müəssisəsində saxlanılması şəraitinin onun etiketində göstərilən tələblərə uyğun olmasına, malın etiketində istehsalçının adı və ünvanı barədə dolğun məlumatın olub-olmamasına xüsusi diqqət yetirməyi tövsiyə edir. Bu barədə İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda bildirilir.

İstehlakçılardan saxlama müddəti ötmüş malların satışı, malların saxlanılması şəraitinə əməl olunmaması, ümumilikdə ticarət qaydalarının pozulması halları ilə rastlaşdıqda 195-2 Çağrı Mərkəzi, www.economy.gov.az internet saytı və “Facebook” səhifəsi vasitəsilə İqtisadiyyat Nazirliyinə, 498-15-01 və 498-15-04 nömrəli telefonlarla və www.consumer.gov.az internet saytı vasitəsilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə məlumat verməleri xahiş olunur. Hüquqlarınızı tələb edin. Bu sizin haqqınızdır.

## Avropa parlamenti Aİ-ni Türkiyə ilə danışıqları dayandırmağa çağırıb



Avropa parlamenti Avropa İttifaqı ölkələrini Türkiyənin birliyə daxil olması ilə bağlı danışıqları dayandırmağa çağıran qətnamə qəbul edib. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, qətnamə 64 səsə qarşı 477 səslə qəbul olunub, 97 parlamentari isə bitərəf qalıb. Sənəddə Türkiyə hakimiyyət orqanlarının konstitusiya islahatını hakimiyyət bölgüsünü təmin edən dəyişiklik aparmadan reallaşdıracağı təqdirə Avropa komissiyasına və üzv-dövlətlərə bu ölkənin Aİ-yə üzvlüyü barədə danışıqları dayandırmaq tövsiyə olunur.

Türkiyənin Xarici İşlər Nazirliyi Avropa parlamentinin qərarını sərt tənqid edib. XİN-dən bununla bağlı verilən açıqlamada deyilir ki, əsası olmayan iddialara və iftiralara söykənən qətnamə quruma bəslənilən etimadı sarsıdır. Türkiyə tərəfi bu qərarı rədd edir və onu yox kimi sayır.

## Cəzaçəkmə müəssisəsinə narkotik vasitənin keçirilməsinə cəhdi edilib

Penitensiar Xidmətin Baş idarəsinin və 7 saylı cəzaçəkmə müəssisəsinin əməliyyat aparatlarının birgə həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində cəzaçəkmə müəssisəsinə narkotik maddə keçirilməsi cəhdinin qarşısı alınıb. Bu barədə SİA-ya Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Bildirilib ki, Cinayət Məcəlləsinin 234.2-ci maddəsinə əsasən, 5 il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Nəbiyev Müşfiq Qahir oğlu ilə qısamüddətli görüşə gəlmiş anası, Mingəçevir şəhər sakini Nəbiyeva Vahilə Xəlil qızı tərəfindən gətirilmiş sovqatda olan ayaqqabının daban hissəsində xüsusi üsulla gizlədilmiş kağız bükülüdə 0.164 qram narkotik vasitə - heroin aşkar edilərək götürülüb. Fakt üzrə toplanılmış materiallar hüquqi qiymət verilməsi məqsədilə Xətai Rayon Polis İdarəsinə göndərilib.

# Azərbaycanda vətəndaşların siyasi fəallığı və dövlətçilik təfəkkürü

***Siyasi fəallıq demokratik dövlətçiliyin tərkib hissəsidir. Siyasi fəallıq həm də vətəndaşlıq hüquqları ilə bağlı anlayışdır. Vətəndaşlıq hüququnun, siyasi fəallığın gerçəkləşməsi ondan ibarətdir ki, dövlət və hökumət xalqa xidmət edir. Xalqı xalqın köməyi ilə idarə etmək o deməkdir ki, demokratik cəmiyyətdə yaşayan vətəndaşlar cəmiyyətin nemətlərindən istifadə etməklə bərabər onun problemlərinə şərik də olur.***

Çünki insan öz üzərinə yaşadığı cəmiyyət üçün müəyyən məsuliyyət də götürür. Həmçinin, demokratiya üçün ən böyük meyarın xalq olduğunu göstərən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Bakıda demokratiya ilə bağlı keçirilmiş konfrans iştirakçılarını qəbul edərkən bildirmişdir: "Əgər xalq ölkədəki vəziyyətdən razıdırsa, o, həyata keçirilən siyasəti dəstəkləyirsə, deməli, bu siyasət düzgündür. Mənim üçün, məhz xalqın nə düşündüyü daha vacibdir. Hakimiyyət onların qabağında hesabat verir".

Demokratiyanın aşağıdakı prinsipləri mövcuddur:

- Xalqın suverenliyi;
- İnsan hüquq və azadlıqlarının qorunması;
- Hakimiyyətdə xalqın siyasi fəallığı və iştirakı;
- Həddi-büluğa çatmayanların hüquqlarının təminatı;
- Azad, ədalətli seçkilərin keçirilməsi, bərabərhüquqluğun təşkil olunması;
- Hökumət üzərində prezident, konstitusiya və məhkəmə nəzarəti;
- Tolerantlıq, multikultural mühit, plüralizm, milli həmrəylik.

Heç bir sistemin verə bilmədiyi, digərlərində rast gəlinə bilməyən dəyərlər, prinsiplər, insanın bir fərd olaraq azad inkişafı yalnız demokratik cəmiyyətlərdə müşahidə olunur. Bir sözlə, demokratiya kollektiv qərarlar üzərində ictimai nəzarət və belə nəzarətin həyata keçirilməsində hüquq bərabərliyi prinsipinə riayət olunmasını tələb edir. Diqqəti demokratiyada, insanların hakimiyyətin təşkilində və idarə olunmasındakı iştirakının, bu iştirakın müxtəlif tərəflərinin əhatəli, nəzəri və praktiki cəhətdən öyrənilməsinə yönəltsək, görərik ki, geniş kütlənin siyasi proseslərdəki birbaşa və dolayı yolla iştirakı olduqca problemli və ciddi tədqiqata ehtiyacı olan məsələdir. Demokratiyada siyasi iştirak və iştirak demokratiyasının araşdırılması problemi olduğundan bu bölümdə məsələnin nəzəri tərəflərinə aydınlıq gətirməyə çalışacağıq.

İlk öncə, diqqəti siyasi fəallıq termininə yönəldərək, göstərək ki, bu termin bir çox siyasi sistemlərdə ayrı-ayrı formalarda öz əksini tapmaqdadır. Lakin biz, əsasən, demokratik cəmiyyətlərdəki siyasi iştirak probleminə toxunacaq və bunu izah etməyə çalışacağıq. Siyasi iştirak hər hansı siyasi sistemdə cəmiyyətin bu və ya digər formada dövlətin idarə olunmasında, siyasi proseslərdə və bütünlükdə, ölkədəki siyasi həyatdakı iştirakıdır. Bu tərifi daha da dəqiqləşdirmək və aydınlaşdırmaq lazımdır. Siyasət elminin ən mükəmməl tədqiqatçılarından olan L.S.Sanisteban özünün yazdığı "Siyasət elminin əsasları" kitabında bu məsələyə xüsusi yer ayırmışdır. O, kitabında qeyd edir: "Siyasətdə iştirak" dedikdə, elitanın formalaşdırılmasında, onun legitimliyinin tanınmasında, apardığı siyasətin düzgün ifadə edilməsində və həyata keçirilməsinə nəzarət etməkdə kütlələrin iştirakı nəzərdə tutulur. Bu cür iştiraketmə yolu ilə idarə olunanlar idarə edənləri özlərinin mənafeləri ilə hesablaşmağa vadar edirlər.

Siyasi iştirak siyasi sistemin fəaliyyət qabiliyyətini sübuta yetirən mühüm amil sayılır. Dövlət çərçivəsində vətəndaşların siyasətə cəlb olunmalarının spesifik formaları qərarlaşır. Hər bir fərd cəmiyyətdə yerinə yetirdiyi rola görə öhdəsinə düşən sosial mahiyyət daşıyır. Şəxsiyyətin müxtəlif situasiyalardakı rolu onun konkret funksiyaları yerinə yetirməsi vasitəsilə baş verir. Siyasi proseslərdəki iştirakı ilə şəxsiyyətin özünün sosial mövcudluğunu təsdiq etmiş olur. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir. Ümumdünya insan haqları Bəyannaməsinin müqəddiməsində oxuyuruq: bəşəriyyət dediyimiz bir ailənin bütün üzvlərinin ləyaqətinə, onların bərabər və ayrılmaz hüquqlarına hörmət etmək azadlığın, ədalətin və ümumi sülhün əsasını təşkil edir".

Partisipar demokratiya nəzəriyyəsinin tərəfdarları, həmçinin, L.Qudmen və T.Xeyden hesab edirlər ki, əhalinin siyasi qərarların qəbul edilməsi prosesinə fəal şəkildə qoşulması siyasi iştirakın müəyyənedici əlamətidir. Burada söhbət, bütünlükdə siyasi iştirakdan gedir. Amma bizim araşdırmağa çalışdığımız əsas məsələ əhalinin siyasi proseslərdə necə iştirak etməsidir. Çünki politoloqlar şəxsiyyətin və bütünlükdə, cəmiyyətin siyasi iştirakı məsələsinə birmənalı yanaşmırlar. Bir qisim siyasi iştirak dedikdə, bütün cəmiyyətin iştirakını nəzərdə tutur, digəri isə bu cür iştirakın mümkünsüzlüyünü göstərməyə çalışır və bildirirlər ki, bu, lazımsız olaraq cəmiyyətin siyasətə xüsusi vaxt ayırmaları və siyasiləşmələridir. Bəziləri bunu əsas götürərək, sübut etməyə çalışırlar ki, vətəndaşların siyasi həyatda iştirakının yeganə mümkün forması seçkilərdə iştirak etmələridir. Deyilən fikirləri cəmləşdirib belə bir tərif vermək olar: "Siyasi iştirak əhalinin siyasi proseslərdə, hakimiyyətin təşkilində və həyata keçirilməsində cəmiyyətin siyasi proseslərdəki, xüsusən də, bu prosesin əsası olan seçkilərdə və seçkilərarası dövrdəki siyasi fəaliyyətidir." Müasir demokratik cəmiyyətlərdə vətəndaşların siyasi iştirakı məsələsindən danışanda, ilk öncə seçkilər və seçkilərarası proseslər qarşıda durur. Müasir demokratik dövlətlərin qarşısında duran önəmli prinsip seçkilərin ədalətli, azad, şəffaf keçirilməsi, əhalinin bu proseslərdəki iştirakının tam təmin edilməsidir. Çox vaxt Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki əsas xidmətini sağlam qüvvələri səfərbər edərək, xalqın siyasi fəallığını təmin edərək güclü dövlət strukturları yaratmasında, müstəqilliyimizin, daxili ictimai-siyasi sabitliyin real təminatçısı olan dövlət aparatı qurmasında görürlər. Bəli, 1993-cü ildən Azərbaycanda bütün atributlara malik güclü dövlət yaradıcılığına başlandı. Dövlət quruculuğu və onun hüquqi təminatı prosesi bu gün də davam edir. Bu, həqiqətən də, böyük nailiyyətdir. Azərbaycanda dövlət quruculuğu ilə yanaşı, Ulu Öndər Heydər Əliyev dövlətçiliyin inkişafı sahəsində böyük xidmətlər göstərib.

C.Xəlilov xalqın siyasi fəallığı və dövlətçilik təfəkkürünün formalaşdırılması sahəsindəki xidmətləri haqqında yazır: Qərarları qəbul etmək üçün hiss və intellektin keçdiyi yolun dinamikasını, dramatizmini, tərəddüd məqamlarını biz bilmirik. Biz onu həmişə qərarında qətiyyətli görürük. Qəti qərara gəldikdən sonra isə, onun həyata keçirilməsini təmin etmək üçün atılmalı olan addımları da özü göstərir, tövsiyələr verir, dönə-dönə izah edir, öyrədir... Bir sözlə, icra hakimiyyətinin əsas ağırlığını da Prezident öz üzərinə götürür və sonrakı mərhələyə ancaq deyilənləri yaxşı mənimsəmək və ləyaqətlə icra etmək qalır.

Burada prosesin dörd müxtəlif mərhələsini fərqləndirmək lazım gəlir. Birincisi, ideyanın, qərarın formalaşmasına aparan təhlil, rasional və intuitiv fikir mərhələsi, ikincisi, qərarın qəbul olunması və həyata keçirilməsi mexanizminin müəyyənləşdirilməsi, üçüncüsü, onun icra orqanlarına və lazım gəldikdə geniş kütlələrə izah olunması, öyrədilməsi. Dördüncüsü isə icraya nəzarət. Düzdür, Heydər Əliyev üçüncü mərhələdə qərarın şərhini, hadisənin izahını verərkən, ideyanın özünü də bir qədər açır. Lakin ancaq icra üçün lazım olan dərəcədə və şifahi nitqin verə biləcəyi imkan çərçivəsində.

Heydər Əliyev fenomeninin təkrarsızlığı, şəxsiyyətindəki sehr və cazibə də xeyli dərəcədə onun qərara qədərki idrak yolunun adi şüur üçün əlçatmazlığı, məntiqinin şablondan kənara çıxması və proqnozlaşdırıla bilməməsi ilə bağlıdır.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

> Dövlət çərçivəsində vətəndaşların siyasətə cəlb olunmalarının spesifik formaları qərarlaşır. Hər bir fərd cəmiyyətdə yerinə yetirdiyi rola görə öhdəsinə düşən sosial mahiyyət daşıyır. Şəxsiyyətin müxtəlif situasiyalardakı rolu onun konkret funksiyaları yerinə yetirməsi vasitəsilə baş verir. Siyasi proseslərdəki iştirakı ilə şəxsiyyətin özünün sosial mövcudluğunu təsdiq etmiş olur. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Kartof və yulaf qan təzyiqini aşağı salır



Skrenton Universitetinin əməkdaşı Co Vinsonun rəhbərlik etdiyi ekspertlər qrupu müəyyən ediblər ki, gün ərzində bir qədər kartof yemək yulaf yarması kimi, çəkini artırmadan qan təzyiqini aşağı salmağa qadirdir.

Bunun üçün sadəcə kartofu düzgün hazırlamaq lazımdır. Əslində, əgər kartof qızardılmasa, yağsız və ya soussuz təqdim edilsə, onda bir kartof dilimində yalnız 110 kalori və xeyli miqdarda vitamin və bioloji aktiv maddələr olacaqdır.

Aparılan təcrübədə artıq çəkidən və yüksək təzyiqdən şikayət edən 18 nəfərdən ibarət könüllü iştirak etmişdir. Onlara bir ay ərzində gündə iki dəfə 6-8 ədəd kartof dilimi yemək tapşırılmışdır. Nəticədə diastolik qan təzyiqinin orta göstəricisi 4,3 faiz, sistolik təzyiq isə 3,5 faiz aşağı düşmüşdür. Qeyd edək ki, kartofun yüksək istilikli emalı ondakı faydalı birləşmələri dağıdır, nəticədə isə piy, mineral maddələr və nişasta qalır. Təcrübə zamanı isə yalnız mikrodalğalı sobada hazırlanmış kartofdan istifadə olunmuşdur.

# Çox yaşamaq istəyirsiniz?-Velosiped sürün



Hamıya çoxdan məlumdur ki, müntəzəm surətdə velosiped sürmək sağlamlığa və ömür uzanmasına müddətinə yaxşı təsir göstərir. Kopenhagendəki Bispebjerg Universitet xəstəxanasının professoru Piter Şnorun rəhbərliyi ilə alimlər bu mövzuda maraqlı tədqiqat aparmışlar. Onlar 20 il ərzində 21 yaşından 90 yaşınadək hər iki cinsdən olan və hər gün velosiped sürən 5 min adamı müşahidə etmişlər. Məlum olmuşdur ki, velosipedi sürətlə sürən kişilər onu asta sürən kişilərdən 5,3 il çox yaşamışlar. Orta sürətlə gedənlər isə 2,9 il çox ömür sürmüşlər. Qadınlar üçün bu göstəricilər müvafiq surətdə 3,9 və 2,2 ildir.

Beləliklə, məhz velosipeddə intensiv hərəkət insan ömrünü daha da uzadır. Özü də "intensivlik" anlayışı, əlbəttə, nisbidir və fiziki qabiliyyətdən, yaşdan asılıdır. Yəni insanın yüngülcə təngnəfəs olduğu sürəti onun üçün yetərincə intensiv sürət hesab etmək olar. Nəticədə tövsiyələr çox sadədir: velosipeddə çox gəzin, onu kifayət qədər sürətlə sürün və ehtiyatlı olun.

# Duz insanın ağlına mənfi təsir göstərir

Kanadadakı Toronto Universitetinin alimləri duzun insanın əqli qabiliyyətinə mənfi təsir etdiyini müəyyən etmişlər. "Scientist" jurnalında dərc edilən məlumata görə, 67-84 yaş arasında 1.262 nəfərin cəlb edildiyi tədqiqat zamanı onlara gündə 1 çay qaşığı duz verilmişdir.

Məlum olmuşdur ki, yemək və içkilərin tərkibində gündə 1 çay qaşığı duz belə, insanın zehnini zəiflədir və alsgeymer xəstəliyi riskini artırır.

# Stolüstü tennis üzrə Azərbaycan birinciliyi başa çatıb

Gənclər və İdman Nazirliyinin və Stolüstü Tennis Federasiyasının birgə təşkilatçılığı ilə stolüstü tennis üzrə Azərbaycan birinciliyinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, dörd gün davam edən və şəxsi xarakter daşıyan birincilikdə Bakı, Sumqayıt, Qaradağ, Şəki, Şabran, Gədəbəy və digər şəhər və rayonlardan 100-ə yaxın idmançı iştirak edib. Qalib gəlmiş idmançılara diplom və medallar təqdim olunub.



## "Araz" klubunun UEFA kubokunun əsas mərhələsindəki rəqibləri müəyyənləşib



İyulun 6-da İsveçrənin Nyon şəhərində futzal üzrə UEFA kubokunun əsas mərhələsinin püşkatması keçirilib. AZƏRTAC xəbər verir ki, püşkün nəticəsinə əsasən, turnirdəki təmsilçimiz "Araz" "Deva" (Rumıniya), "E" və "F" qruplarının qalibi ilə 8-ci qrupda mübarizə aparacaq. Bu qrupun oyunları oktyabrın 10-dan 15-dək Rumıniyada keçiriləcək. Qeyd edək ki, "E" qrupunda "Flamurtari" (Albaniya), "Mostar" (Bosniya və Herseqovina), "Arnavutköy Bələdiyyəspor" (Türkiyə) və "Narva Yunayted" (Estoniya), "F" qrupunda "Anorthosis" (Kipr), "Klassik" (Moldova), "Leo" (Ermənistan), "Vrexham" (Uels) komandaları qüvvəsini sınayacaq. Əgər "Leo" "F" qrupunun qalibi olarsa, bu komanda mübarizəni 5-ci qrupda davam etdirəcək.




## "Qarabağ" Haiti millisinin üzvü ilə ikiillik müqavilə imzalayıb

2017/2018-ci illər mövsümü üçün nəzərdə tutulan transfer pəncərəsi zamanı Ağdamın "Qarabağ" klubu növbəti transferi reallaşdırıb. AZƏRTAC kluba istinadla xəbər verir ki, yarımmüdafiəçi mövqeyinə transfer etməyi planlaşdıran "Qarabağ" uzun müddətdir davam edən prosesi uğurla tamamlayıb. Komanda Haiti millisinin üzvü və ötən mövsüm Türkiyə Superliqasında "Alanyaspor"da forma geyinən Vild-Donald Guerrierin keçidini rəsmiləşdirib. Yarımmüdafiəçi ilə ikiillik müqavilə imzalanıb. Futbolçu peşəkar karyerasına ölkəsinin "Amerika De Ke" klubunda başlayıb və 2013-cü ilin yayında Polşanın "Visla" klubuna transfer olunub. 2013-2016-cı illərdə "Visla"da 75 oyuna çıxan Guerrier 20 qolla yadda qalıb. Geridə qalan mövsümdə isə futbolçu "Alanyaspor" forması ilə 20 oyunda 4 qol vurub. 2010-cu ildən Haiti millisinə dəvət alan 28 yaşlı futbolçu yığma komandada 37 oyunda 8 dəfə fərqlənib.

## Con Terri: "Məqsədim "Çelsi"nin baş məşqçisi olmaqdır"




"Çelsi"nin sabiq kapitanı Con Terri gələcək planlarından danışıb. Qol.az-ın xarici KİV-ə istinadən yaydığı xəbərə görə, bir müddət əvvəl "Aston Villa" ilə anlaşan təcrübəli müdafiəçi gələcəkdə "Çelsi"yə baş məşqçi kimi qayıtmaq istəyir: "Frank Lempardla bu haqda söhbətimiz olub. O zaman demişdim ki, məqsədim bir gün "Çelsi"nin baş məşqçisi olmaqdır. İndi də bu arzuyla yaşayıram. Bu, böyük arzudu?-Yox, böyük arzu olmur. Hər zaman ən yaxşı olmaq istəmişəm. Başa düşürəm ki, "Çelsi" kimi klubda işləmək üçün ilk növbədə təcrübə toplamalıyam".




## "Arsenal" "Lion"un hücumçusunu transfer edib

"Arsenal" gözlənilən transferi həyata keçirib. Apasport.az saytının məlumatına görə, London təmsilçisi "Lion"un hücumçusu Aleksandr Lakazetti heyətinə cəlb edib. Fransız hücumçu ilə uzunmüddətli müqavilə imzalanıb. Onun komandaya Sidney turnesi zamanı qoşulacağı gözlənilir. Keçidin maddi tərəfi haqqında rəsmi açıqlama olmasa da, İngiltərə mətbuatı iddia edir ki, transfer "Arsenal"a 50 milyon avroya başa gəlib. Qeyd edək ki, Lakazett ötən mövsüm Fransa Liqa 1-də meydana çıxdığı 30 matçda 28 qol vurub.

## AFFA ilə AMADA arasında qarşılıqlı anlaşma haqqında memorandum imzalanıb

İyulun 5-də AFFA-nın inzibati binasında Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) arasında qarşılıqlı anlaşma haqqında memorandum imzalanıb. AZƏRTAC xəbər verir ki, AFFA-nın baş katibi Elxan Məmmədov və AMADA-nın direktoru Şəfəq Hüseynlinin imzaladığı memorandumun müddəalarına uyğun olaraq, növbəti mövsümdən etibarən futbol üzrə Azərbaycan Premyer Liqasında çıxış edən, həmçinin Azərbaycan milli komandalarına cəlb olunan futbolçular dopinq nəzarətinə cəlb olunacaq, bu sahə ilə bağlı müxtəlif tədbirlər, seminarlar keçiriləcək, maarifləndirmə işləri aparılacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**